# 1954-cü ildə Krımın Ukrayna SSR-ə verilməsi...

Rusiya Duması qərarı etibarsız sayıb



**Rusiya Dövlət Dumasına 1954-cü ildə Krımın RSFSR-dən Ukrayna SSR-ə verilməsi haqqında qərarın etibarsız hesab edilməsi haqqında qanun layihəsi təqdim edilib.**

APA-nın Moskva müxbiri xəbər verir ki, müvafiq qanun layihəsi Dumanın elektron məlumat bazasında yerləşdirilib. Qeyd edək ki, Sovet İttifaqı Ali Soveti Rəyasət Heyətinin Krım vilayətinin RSFSR-dən Ukrayna SSR-ə verilməsi haqqında aktı 26 aprel 1954-cü ildə təsdiq edib. Dumanın MDB komitəsinin sədr müavini, ermənipərəst Konstantin Zatulin həmin aktın qanunsuz hesab edilməsi təklifi ilə çıxış edib.



## Xəzərdə zəlzələ olub

**Xəzər dənizində 3,9 maqnitudalı zəlzələ olub.**

Bu barədə Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzindən bildirilib.

Zəlzələ Bakı vaxtı ilə dünən 16:53-də qeydə alınıb.




# Bakı-Sumqayıt yolu keçilməz qalaya çevrilir

İllərdir ölkənin ən aktual problemi ilə bağlı müzakirələr aparılır, təkliflər verilir, amma hələ də konkret addımlar yoxdur

**Bakı-Sumqayıt yolu 6 zolaqlı olsa da, paytaxta çatan hissədə 2 zolaqlı olur və nəticədə sıxlıq yaranır.**

Bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində keçirilən ictimai dinləmələrdə deputat Fəzail Ağamalı bildirib.

"Mən bu gün Milli Məclisə gəlmək üçün saat 8:00-da Novxanıdan yola çıxmışam, 10-a 5 dəqiqə qalmış burada olmuşam. Bu hal isə hər gün yaşanır.

(səh.4)

№ 46 (6047) 2024-cü il

# ŞƏRQ

Günəş Şərqdən doğur!

Qiyməti 40 qəpik

www.sherg.az 12 mart 2024-cü il (çərşənbə axşamı)



# Turan yolunun bünövrəsi hazırlanır

Qazaxıstan Türkiyədən sonra Türk Dövlətləri Təşkilatında təmsil olunan ən böyük dövlətlərdən biridir

**Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Azərbaycanda səfərdədir. Dünən rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan prezidenti Kasım-Jomart Tokayev ilə məhdud tərkibdə görüşü keçirilib. Azərbaycan-Qazaxıstan arasında sənədlərin imzalanması mərasimi baş tutub.**

Sonra Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın birinci iclası keçirilib. Prezident İlham Əliyev vurğulayıb ki, Qazaxıstan və Azərbaycan iki qardaş dövlətdir: "Xalqlarımız ictimai-siyasi formasiyadan asılı olmayaraq, uzun əsrlər boyu sülh, qardaşlıq, əməkdaşlıq şəraitində yaşayır.

(səh.4)

# Açıq fikir, açıq qapı...

Türkiyə ABŞ ilə doğru strategiya yürüdür



**Türkiyənin xarici işlər naziri Fidan ABŞ-nin paytaxtı Vaşinqtona iki günlük səfəri zamanı amerikalı həmkarı Antoni Blinken, Ağ Evin milli təhlükəsizlik müşaviri Ceyk Sallivan, Senatın Xarici Əlaqələr və Kəşfiyyat Komitəsinin üzvləri və Milli Kəşfiyyatın direktoru Avril Haynsla mühüm görüşlər keçirib.**

Fidan mətbuata açıqlamasında Türkiyə-ABŞ münasibətlərini dəyərləndirib. Türkiyəli nazir deyib ki, hazırda, xüsusən də bu mərhələdə yenilənmiş psixologiya, daha müsbət gündəm və yeni səhifə açaraq yola davam etmək imkanı var...

(səh.2)

# Qazaxıstan Azərbaycanın etibarlı dostu və müttəfiqidir

Prezidentlər regional məsələləri ətraflı müzakirə ediblər



**Martın 11-də Azərbaycan Prezidenti İlham Əliyevin və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın birinci iclası keçirilib. İclasda çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev deyib ki, həmkarı Tokayevlə gündəliyin ikitərəfli və regional problematikası üzrə bir çox məsələləri müzakirə edib:**

"İndi Dövlətlərarası Şuranın birinci iclasına başlayırıq. Şuranın yaradılması qərarı özlüyündə tarixidir. Bu, münasibətlərimizin yüksək səviyyəsini və hər iki tərəfin qarşılıqlı əməkdaşlıq potensialının möhkəmləndirilməsi istəyini bir daha sübut edir. Hesab edirik ki, səfərin nəticələri və Dövlətlərarası Şuranın iclası bir çox hallarda münasibətlərimizin gələcək gündəliyini müəyyən edəcək.

(səh.2)

# Ermənistanın bütün cəhdləri əbəsdir

Separatçı tör-töküntülərin fəaliyyətlərinin hər hansı bir nəticəsi olmayacaq



**Özünü buraxmış və artıq mövcud olmayan Qarabağdakı qondarma rejim hazırda Ermənistanda baş qaldırır.**

Görünən odur ki, Nikol Paşinyan hakimiyyəti də onların fəaliyyəti üçün şəraiti təmin edir. Separatçılar fəaliyyət əhatəsini genişləndirərək Qərb təmsilçiləri ilə də görüşlərə can atırlar. Bu proses davam edəcəyi təqdirdə, Ermənistanın ağır nəticələrlə üzləşəcəyi şübhə doğurmur. Azərbaycan dövləti Qərbi Azərbaycanı bəyan edə bilər.

(səh.3)



## Ermənistana məxsus PUA zərərsizləşdirilib

Martın 11-i saat 12:10-da Ermənistan silahlı qüvvələrinin bölmələri Tovuzqala rayonunun Çinarlı yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Ordumuzun Tovuz rayonunun Əsrik yaşayış məntəqəsi istiqamətindəki mövqeləri üzərində kvadrokopter vasitəsi ilə kəşfiyyat uçuşları həyata keçirməyə cəhd göstərib.

Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

Bölmələrimizin sayıqlığı nəticəsində aşkar olunan pilotsuz uçuş aparatı xüsusi texniki vasitələrlə zərərsizləşdirilib.

## Karantin rejimi 1 iyula qədər uzadıldı

Bu, ölkə iqtisadiyyatına və turizmə böyük ziyan vurur



**Koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2024-cü il 1 iyul saat 06:00-dək uzadılıb.**

Bu barədə Baş nazir Əli Əsədov Qərar imzalayıb. Xatırladaq ki, daha əvvəl xüsusi karantin rejiminin müddəti 2 aprelədək nəzərdə tutulmuşdu.

(səh.7)

## "Azəriqaz" sədri vəzifəsindən azad edilib



**Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) "Azəriqaz" İstehsalat Birliyinin (İB) sədri Ruslan Əliyev vəzifəsindən azad edilib.**

Bu barədə məlumatı "Azəriqaz" İB-nin mətbuat katibi Eldəniz Vəliyev Trend-ə təsdiq edib.

"Onun yerinə müavini Azər Məmmədov təyin edilib", - Vəliyev qeyd edib.



## Erməni mediası məqsədli dezinformasiya yayır

Türkiyənin Ermənistan sərhədinə texnika yığmasına ehtiyac yoxdur

(səh.3)



## "Kamil Zeynallı şagirdlərə nümunə olacaq şəxsdir"

Kamran Əsədov: "Onun orta məktəblilərlə görüşündə heç bir problem yoxdur"

(səh.7)



# Qazaxıstan Azərbaycanın etibarlı dostu və müttəfiqidir

## Prezidentlər regional məsələləri ətraflı müzakirə ediblər

**Martın 11-də Azərbaycan Prezidenti İlham Əliyevin və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın birinci iclası keçirilib. İclasda çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev deyib ki, həmkarı Tokayevlə gündəliyin ikitərəfli və regional problematikası üzrə bir çox məsələləri müzakirə edib:**

”İndi Dövlətlərarası Şuranın birinci iclasına başlayırıq. Şuranın yaradılması qərarı özlüyündə tarixidir. Bu, münasibətlərimizin yüksək səviyyəsini və hər iki tərəfin qarşılıqlı əməkdaşlıq potensialının möhkəmləndirilməsi istəyini bir daha sübut edir. Hesab edirik ki, səfərin nəticələri və Dövlətlərarası Şuranın iclası bir çox hallarda münasibətlərimizin gələcək gündəliyini müəyyən edəcək. Qazaxıstan və Azərbaycan iki qardaş dövlətdir. Xalqlarımız ictimai-siyasi formasiyadan asılı olmayaraq, uzun əsrlər boyu sülh, qardaşlıq, əməkdaşlıq şəraitində yaşayır. İki müstəqil dövlət olaraq isə artıq 30 ildən çoxdur ki, həm beynəlxalq strukturlarda, həm də ikitərəfli formatda fəal qarşılıqlı fəaliyyət göstərir. Son vaxtlar qarşılıqlı səfərlərimizin dinamikası çox illüstrativdir və bu, münasibətlərə yeni dinamizm verildiyini göstərir”.

**“Qazaxıstanın uğurları bizi sevindirir”**

Dövlət başçısı vurğulayıb ki, Qazaxıstanın uğurları bizi sevindirir: ”Sizi və bütün qardaş Qazaxıstan xalqını sosial-iqtisadi inkişafda, innovativ tərəqqidə çox böyük nailiyyətlər münasibətilə təbrik etmək istərdim.
Qazaxıstanın iqtisadi inkişafı və ümumi daxili məhsulun artması düzgün və düşünülmüş iqtisadi siyasətdən xəbər verir. Həmçinin Sizin ölkənin modernləşdirilməsinə, iqtisadiyyatın şaxələndirilməsinə yönəlmiş və artıq bir çox nailiyyətlərin əldə edildiyi islahatlarınızı tam dəstəkləyirik. Bu gün regional problematika məsələlərini ətraflı müzakirə etdik. Mən Kasım-Jomart Kemeleviçə Azərbaycan ilə Ermənistan arasında sülh danışıqları prosesi haqqında məlumat verdim və ümidvar olduğumu bildirdim ki, bu proses sülh sazişinin imzalanması, tariximizin bu ağır və qara səhifəsinin çevrilməsi ilə başa çatacaq. Həmçinin bizi birləşdirən layihələrdən də ətraflı danışdıq. Mən Qazaxıstan Prezidentinə Qarabağın bərpasında göstərilən qardaş köməyinə, məhz qazax xalqının Azərbaycan xalqına hədiyyəsi və Prezident Tokayevin təşəbbüsü olan Füzuli şəhərindəki Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinə görə təşəkkürümü bildirdim. Sabah biz dostluğumuzun da mərkəzi olacaq bu Mərkəzin açılışını edəcəyik. Azərbaycanın suverenliyinin bərpası məsələsində həmrəylik sözlərinə görə minnətdarıq. Əlbəttə, zənnimcə, Azərbaycanda hamı bilir ki, Qazaxıstan bizim etibarlı dostumuz və müttəfiqimizdir”.

**“Ali Dövlətlərarası Şuranın iclasının keçirilməsi tarixi hadisədir”**

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev da göstərilən qonaqpərvərliyə görə səmimi minnətdarlığını bildirib və fürsətdən istifadə edərək, İlham Əliyevi prezident seçkilərində çox böyük inamlı qələbə münasibətilə bir daha təbrik edib: ”Bu qələbə yüksək etimadın, Sizin strateji kursunuza ümumxalq dəstəyinin göstəricisidir. Siz Azərbaycan xalqının hər kəs tərəfindən qəbul olunan liderisiniz və Sizi beynəlxalq arenada məhz bu cür qəbul edirlər. Eyni zamanda Sizin də doğru qeyd etdiyiniz kimi, Azərbaycanın tarixi Qələbəsinə, öz əraziləri ilə bağlı suverenliyinin bərpa olunmasına səmimi-qəlbdən sevinirik. Bu Qələbə mahiyyət etibarilə tarixidir və şübhəsiz ki, həm Azərbaycanın, həm də ümumdünya tarixinin salnaməsinin səhifələrinə daxil olacaq.
Qazaxıstan-Azərbaycan münasibətlərinə gəldikdə, biz ilk dəfədir ki, Ali Dövlətlərarası Şuranın iclasını keçiririk. Ümumilikdə, bu da tarixi hadisədir. Elə indicə biz iqtisadi-ticari və investisiya əməkdaşlığımızla, beynəlxalq arenada qarşılıqlı fəaliyyətimizlə bağlı demək olar ki, bütün məsələlərin müfəssəl müzakirəsini apardıq və ümumi nəticələrə gəldik. Bu, onu göstərir ki, Qazaxıstan və Azərbaycan həqiqətən strateji tərəfdaşlardır, müttəfiq dövlətlərdir. Əməkdaşlığımızda baş verənlərin mühüm sirri də məhz buradadır. Perspektivlər çox yaxşıdır və təbii ki, hökumətlər bu gün imzalanmış sənədlər, sazişlər formasında əldə olunan razılaşmaların həyata keçirilməsi ilə məşğul olacaqlar”.

Tokayev bildirib ki, əməkdaşlığın və qarşılıqlı fəaliyyətin, təmasların səviyyəsi kifayət qədər yüksəkdir: ”Bu gün Sizin Şanxay Əməkdaşlıq Təşkilatının sammitində, Mərkəzi Asiya Dövlətləri liderlərinin Məşvərət görüşündə iştirakınızın nəzərdə tutulduğu və ya planlaşdırıldığı barədə danışdıq. Türk Dövlətləri Təşkilatı liderlərinin qeyri-rəsmi sammitində iştirak etməyimlə bağlı dəvəti böyük ümidlə və minnətdarlıqla qəbul edirəm. Əlbəttə, COP29 sammiti - bu da ümumilikdə Azərbaycan dövlətinin və onun diplomatiyasının tarixi nailiyyətidir. Sammit mövcud iqlim problemlərinin nizamlanması nöqteyi-nəzərindən, həm də məhz bu sahədə qlobal əməkdaşlıq baxımından birinci dərəcəli əhəmiyyətə malikdir. Şübhəsiz ki, Bakı bu vəzifənin öhdəsindən gələcəkdir. Biz Dubayda keçirilən COP28 sammitində iştirak etdik və gördük ki, bu, həqiqətən çox mühüm forumdur. Sevinirik ki, belə mühüm qlobal forumun keçirilməsi məkanı qismində məhz Bakı seçilib. Biz Qazaxıstanın və Azərbaycanın Xəzər dənizi üzrə qonşu dövlətlər olması və bunun, təbii ki, qarşılıqlı münasibətlərimizə xüsusi xarakter verməsi barədə danışdıq. 2020-ci ildən Qazaxıstan və Azərbaycan arasında əmtəə dövriyyəsi beş dəfə artıb. Əlbəttə, mütləq rəqəmlər o qədər də böyük təəssürat yaratmaya bilər. Bu sahədə işlər davam etdirilməlidir. Ölkələrimiz böyük iqtisadi potensiala malikdir və düşünürəm ki, növbəti uğurlar çox da uzaqda deyil. Biz bu gün nəqliyyat və logistikadan tutmuş rəqəmsallaşma məsələlərinə qədər, hələ neft və qaz və digərlərini demirəm, müxtəlif məsələlərdən danışdıq. Məmnunam ki, biz beynəlxalq arenada da uğurla əməkdaşlıq edirik. İstər Birləşmiş Millətlər Təşkilatında, yaxud başqa beynəlxalq təşkilatlarda nümayəndə heyətlərimiz uğurlu qarşılıqlı fəaliyyət göstərirlər. Zənnimcə, bu xətt davam edəcəkdir. Müqəddəs şəhərlər olan Türküstan və Şuşa, həmçinin Uralsk və Mingəçevir, Şımkent və Gəncə arasında qardaşlıq münasibətlərini müsbət nöqteyi-nəzərdən qeyd etmək istəyirəm”.

**“Ölkələrimiz arasında mədəni əlaqələrə də böyük diqqət yetirirəm”**

Qazaxıstan rəhbəri deyib ki, mədəni əlaqələrə də böyük diqqət yetirir, bu, xalqlarımızın yaxınlaşması nöqteyi-nəzərindən olduqca vacibdir: ”Sumqayıt şəhərində Axmet Baytursınovun xatirəsinin əbədiləşdirilməsi və onun adına küçənin açılışı, Astanada Heydər Əliyevin adının əbədiləşdirilməsi də ölkələrimiz üçün əlamətdar oldu, təşəkkür edirik. Ötən il Azərbaycanda Mədəniyyət Günləri böyük uğurla keçirildi və Sizin də dediyiniz kimi, sabah Füzuli şəhərində Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılışını edəcəyik. Bu da qarşılıqlı fəaliyyətimizin və əməkdaşlığımızın rəmzi olacaq. Daha, necə deyərlər, əlavə ediləcək heç nə yoxdur, çünki artıq həqiqətən də əməkdaşlığımızın gündəliyində mövcud olan bütün məsələlərdən danışdıq. Təklif edirəm ki, Şuranın iclasına başlayaq”.

**İsmayıl**

# Çindən çıxan qatar Abşeron stansiyasına çatdı

## Liderlər konteyner qatarının gəlişi mərasimini videobağlantı ilə izləyiblər



**Azərbaycan və Qazaxıstan liderləri Çinin Siyan terminalından Bakının Abşeron stansiyasına konteyner qatarının gəlişi mərasimini videobağlantı ilə izləyiblər. Qeyd olunub ki, qatar Bakı şəhərinədək məsafəni on bir günə qət edib. Sonra qatarın gəlməsinə dair videokadrlar nümayiş etdirilib.**

Məlumat üçün deyilib ki, konteyner qatarının Çinin Sian şəhərində istismara verilmiş Qazaxıstana məxsus Nəqliyyat-Logistika Mərkəzi tərəfindən yola salınması Orta Dəhlizin bütün iştirakçıları üçün böyük əhəmiyyət kəsb edir. Altmış bir konteynerdən ibarət qatar uzunluğu 7 min kilometr olan marşrutu (Siandakı Qazaxıstan terminalı-Aktau-Abşeron stansiyası) 11 günə qət edib. Multimodal daşıma zamanı konteynerlər Qazaxıstan limanında yenidən yüklənərək Xəzər dənizi ilə Bakı Beynəlxalq Dəniz Ticarət Limanına, oradan isə Abşeron stansiyasına çatdırılıb. Orta Dəhlizin inkişaf etdirilməsi və yeni yüklərin cəlb edilməsi baxımından bu günlərdə Çində fəaliyyətə başlamış Qazaxıstanın Nəqliyyat-Logistika Mərkəzi marşrut üzrə yükdaşımaların həcminin əhəmiyyətli dərəcədə artırılmasına hədəflənib. İlkin razılaşmaya əsasən, bu Mərkəz vasitəsilə Azərbaycana ayda 10 konteyner qatarının yola salınması planlaşdırılır. Bununla yanaşı, Orta Dəhlizin inkişafı üçün birbaşa istehlakçılara yönəlmiş rəqəmsal DTC platforması yaradılıb, Azərbaycan və Qazaxıstan dəmir yolları ”Track and Trace” (”Təqib və İzləmə”) funksiyası vasitəsilə real vaxt rejimində marşrut boyunca yüklərin izlənməsi sisteminə inteqrasiya olunub. Vahid rəqəmsal ekosistemin yaradılması və inkişaf etdirilməsi Orta Dəhlizin şəffaflığını, cəlbediciliyini getdikcə artırır. Azərbaycan və Qazaxıstan dəmir yolları idarələrinin birgə səyləri sayəsində 2024-cü ildə yükdaşımaların həcminin əhəmiyyətli dərəcədə artırılması planlaşdırılır. Cari ilin yanvar-fevral aylarında ”Qazaxıstan Dəmir Yolları” Səhmdar Cəmiyyəti ilə ”Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyəti arasında yükdaşımaların həcmi 2023-cü ilin eyni dövrü ilə müqayisədə 25 faiz artaraq 539,5 min ton təşkil edib. Xatırladaq ki, əvvəllər Çindən Orta Dəhliz vasitəsilə yüklərin Qara dəniz limanlarına çatdırılması təxminən 53 gün çəkirdisə, hazırda bu müddət 18 gün təşkil edir.

**Prezident İlham Əliyev deyib ki, Qazaxıstan və Azərbaycan bütün istiqamətlər, o cümlədən tranzit nəqliyyat sahəsində - konnektivliklə bağlı sahədə qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsi istiqamətində aktiv fəaliyyət göstərirlər:** ”Bizim ikitərəfli əməkdaşlığımız həm Trans-Xəzər nəqliyyat marşrutu, həm də Orta Dəhliz layihələrinin həyata keçirilməsi çərçivəsində çoxtərəfli əməkdaşlığımızın bir hissəsidir. Bu gün müzakirə edilən planlar ölkələrimizin dəmir yollarının boş qalmaması, belə konteyner qatarlarının isə gündəlik həyatımızın bir parçası olmasına imkan verir. Ölkələrimiz arasında müxtəlif istiqamətlərdə nə qədər çox yük daşınarsa, əməkdaşlığımız o qədər inkişaf edəcək, Qazaxıstanla Azərbaycan beynəlxalq nəqliyyat daşımalarında daha böyük rol oynayacaqlar. Bir daha Qazaxıstan və Azərbaycanı, həmçinin Çindəki tərəfdaşlarımızı bu əlamətdar hadisə münasibətilə təbrik edirəm. Qatarın yolu açıq olsun”.

Prezident Kasım-Jomart Tokayev da bildirib ki, əslində, Avrasiya kontinenti nəqliyyat-logistika karkası formalaşıb: ”Hesab edirəm ki, bugünkü tədbir Qazaxıstan ilə Azərbaycan arasında qarşılıqlı fəaliyyət və əməkdaşlıq tarixinə qızıl hərflərlə yazılacaq. Qazaxıstan və Azərbaycan təbii strateji müttəfiq və əməkdaşlığın bütün sahələrində, əlbəttə ki, nəqliyyat-logistika üzrə tərəfdaşdırlar. Bu gün danışıqlar əsnasında məhz təkcə bizim ölkələri deyil, həm də yaxınlıqdakı bir çox dövlətləri birləşdirən bu sahədən çox bəhs etdik. Fürsətdən istifadə edərək, xoş niyyətə və əməkdaşlığa görə Çin Xalq Respublikasının hökumətinə minnətdarlığımı ifadə etmək istərdim. Azərbaycanın hörmətli Prezidenti İlham Heydər oğlu Əliyevin sözlərinə qoşuluram”.

**İsmayıl**

# Açıq fikir, açıq qapı...

## Türkiyə ABŞ ilə doğru strategiya yürüdür

**Türkiyənin xarici işlər naziri Fidan ABŞ-nin paytaxtı Vaşinqtona iki günlük səfəri zamanı amerikalı həmkarı Antoni Blinken, Ağ Evin milli təhlükəsizlik müşaviri Ceyk Sallivan, Senatın Xarici Əlaqələr və Kəşfiyyat Komitəsinin üzvləri və Milli Kəşfiyyatın direktoru Avril Hayns ilə mühüm görüşlər keçirib.**



“Fidan amerikalı həmkarı Blinkenlə münasibətlərdə yeni bir dövr açmağa çalışaraq mövcud problemləri idarə etmək istəyir”

Fidan mətbuata açıqlamasında Türkiyə-ABŞ münasibətlərini dəyərləndirib. Türkiyəli nazir deyib ki, hazırda, xüsusən də bu mərhələdə yenilənmiş psixologiya, daha müsbət gündəm və yeni səhifə açaraq yola davam etmək imkanı var: ”Böhranları idarə etmək üçün hər iki ölkənin yaddaşı və refleksləri var. Blinkenlə münasibətlərdə yeni bir dövr açmağa çalışırıq. Hazırda yaşadığımız problemləri idarə etmək, eyni zamanda iki ölkənin istehsal edə biləcəyi ortaq potensial və imkanları reallaşdırmaq vacibdir”. Hakan Fidan ABŞ-nin YPG/PKK ilə müvəqqəti başlayan, lakin daimi istiqamətə doğru irəliləyən əməkdaşlığının Türkiyə ilə qarşıdurma riski daşıdığını və bunu həmsöhbətlərinə dediyini bildirib: ”Amerika administrasiyasının bu məsələdən necə çıxacağını və hansı addımları atacağını görəcəyik”. XİN başçısı Türkiyənin S-400 almasına görə ABŞ-nin birtərəfli qaydada ləğv etdiyi F-35 proqramına da toxunub: “Türkiyə bu mövzuları geniş fikir və açıq şəkildə danışmağa və müzakirə etməyə hər zaman hazırdır. Biz də inanırıq ki, indiki mərhələdə məsələləri müxtəlif rakurslardan müzakirə edə bilərik. Düşünürük ki, Amerika da bu məsələdə açıq fikirli olmalıdır”.

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu ”Şərq”ə deyib ki, Türkiyənin xarici işlər naziri Hakan Fidanın Vaşinqtona son səfərinin nəticələrini müsbət qiymətləndirmək olar. Ekspertin sözlərinə görə, Hakan Fidan demək istəyib ki, iki ölkə arasındakı münasibətlərdə həllini gözləyən problemli mövzular olsa da, dialoqdan və tərəfdaşlıqdan qopmaq olmaz:** ”Doğru strategiyadır. ABŞ-nin Suriya ərazisində PKK-nın törəmə təşkilatlarına dəstəyi, Fətullah Gülənin Pensilvaniya ştatından “təşkilatını” idarə etməsi, razılaşmaların əksinə olaraq F-35 təyyarələrinin Türkiyəyə satışının qadağan edilməsi və s. problemlər mövcuddur. Elə buna görə də Fidan amerikalı həmkarı Blinkenlə münasibətlərdə yeni bir dövr açmağa çalışaraq mövcud problemləri idarə etmək, eyni zamanda iki ölkənin istehsal edə biləcəyi ortaq potensial və imkanları reallaşdırmaq vacibliyini bildirib.

**Amerikanın dünya proseslərinə təsiri azalsa da, supergüc olaraq qalır.** Bu dövlətlə müxtəlif mövzularda razılaşmamaq olar. Ancaq Vaşinqtonla bütün körpüləri yandırmaq doğru deyil. Azərbaycanın da ABŞ-nin siyasətindən haqlı narazılıqları var. Buna baxmayaraq, Bakı ilə Vaşinqton arasında dialoq davam edir, enerji və təhlükəsizlik sahəsində ortaq maraqlar var”.

**İsmayıl Qocayev**

# Qazaxıstan-Azərbaycan strateji əməkdaşlığı güclənəcək

## 44 günlük Qarabağ müharibəsindən sonra türk dövlətləri arasında xüsusi yaxınlaşma müşahidə olunur

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə Azərbaycan Respublikası və Qazaxıstan Respublikası Ali Dövlətlərarası Şuranın birinci iclası keçirilib.**

Bu barədə Prezidentin Mətbuat Xidməti məlumat yayıb.

Həmçinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev mətbuata bəyanatlarla çıxış ediblər.



**Mövzu ilə bağlı ”Şərq”ə açıqlama verən siyasi şərhçi Turab Rzayev bildirib ki, indiki dövrdə Azərbaycan və Qazaxıstan münasibətləri həddindən artıq strateji xarakter alıb:** ”Qazaxıstanla Azərbaycan arasında Ali Dövlətlərarası Şuranın ilk iclası Bakıda keçirilir. Bu isə iki ölkə əlaqələrinin hansı səviyyəyə yüksəlməsinin ən bariz nümunəsidir. Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında dərin tarixi, siyasi, iqtisadi birlik var. Qazaxıstan, Özbəkistan və digər türk dövlətləri həm dil, həm din cəhətdən bizə qardaş ölkələrdir. 44 günlük Qarabağ müharibəsindən sonra bu dövlətlər ilə Azərbaycan arasında xüsusi yaxınlaşma oldu. Həmin dövlətlər Azərbaycana daha böyük simpatiya ilə baxmağa başladılar. Onlar düşündülər ki, Azərbaycan və Türkiyənin hərbi əməkdaşlığına, gücünə arxalana bilərlər. Hazırda Özbəkistan, Qazaxıstan, Qırğızıstanın Azərbaycan və Türkiyə ilə ciddi şəkildə iqtisadi, siyasi, hərbi əməkdaşlığı mövcuddur. Rusiya-Ukrayna müharibəsindən sonra isə bu ölkələrdən Azərbaycana gələn mal və xidmətlərin dəyəri üç dəfə artıb.

**Ekspert qeyd edib ki, son dövrlər dünya ölkələrinin Mərkəzi Asiya regionuna maraqlarının artdığının şahidi oluruq:** ”Bütün artan siyasi təzyiqlər və əməkdaşlıq təklifləri qarşısında türk dövlətləri birliklə fəaliyyət göstərməlidir. Həmçinin Azərbaycan çalışır ki, Qazaxıstan nefti və Özbəkistanın digər məhsulları ərazimizdən keçsin. Hazırda Qazaxıstan-Azərbaycan hava səfərlərinin sayı artıb və iki ölkənin limanlarından bir-birinə birbaşa şəkildə balıq məhsulları daşınır. Bundan sonra da Qazaxıstan, Azərbaycan strateji əməkdaşlığı güclənəcək”.

**Şahanə Ziyad**



# Biz artıq İranın iç üzünü görmüşük

## Ermənistanın yenidən silahlandırılmasında Tehranın Hindistan və Fransa ilə birliyi Azərbaycana qarşı açıq meydan oxumaqdır

**Fransanın Ermənistanı silahlandırma karvanında Hindistanda həvəslə iştirak etməkdədir. Ermənistan Hindistandan 155 milyon dollar dəyərində 155 mm çaplı 84 ədəd qabaqcıl artilleriya sistemi olan "ATAGS" alacaq. Bu barədə Hindistan mətbuatı yazıb. Qərbə sığınıb, Rusiyadan üz döndərib, İrandan kömək uman, ortada qalan Ermənistan açıq və gizli şəkildə müharibə hazırlıqları görür, Qərbin əlində alət olur.**

Hələ 2023-cü ildə məlumat yayılmışdı ki, İrəvanla Dehli arasında 2022-ci ilin sentyabr ayında silahla bağlı müqavilə imzalanıb. Ermənistan mətbuatı yazırdı ki, həmin sənədin şərtlərinə əsasən, Hindistan Ermənistana təxminən 250 milyon dollarlıq silah tədarük edəcək. Söhbət əsasən "Pinaka" raket sistemlərinin və onların sursatlarının, eləcə də tank əleyhinə digər silahların satışından gedir. Bu silahlar Hindistanın yerli istehsalıdır. Onlardan daxili silahlanmada istifadə olunur. Həmin vaxt məlumat yayılmışdı ki, Ermənistana dəyəri təxminən 150 milyon ABŞ dolları olan "ATAGS" haubitsaları da tədarük ediləcək. Ermənilərin şəninə təriflər yağdırdıqları 155 mm-lik bu topların atış məsafəsinin 48 kilometrə qədər olduğu, dağ döyüş əməliyyatları şəraitində sınaqdan keçirildiyi və hazırda Hindistan ordusunun arsenalına 150 ədəd "ATAGS"ın daxil edildiyi bildirilir. Məlumdur ki, Hindistandan Ermənistana strateji hava yolu yalnız İran vasitəsilə reallaşdırıla bilər. Azərbaycan heç vaxt öz hava məkanından bu məqsədlər üçün istifadə olunmasına imkan verməz. Perspektivdə bu yolla Fransa lisenziyası ilə Hindistanda istehsal olunan silahların Ermənistana daşınması nəzərdə tutulur. İran Hindistanla Ermənistan arasında strateji hava yoluna şərait yaratmaqla bu planın gerçəkləşməsinə töhfə vermiş olur ki, bunun da nəticədə İranın özü üçün hansı problemlər yaradacağı aydındır. Ermənistanda Aİ missiyasının fəaliyyət göstərdiyi, Ermənistanın Rusiya ilə hərbi əməkdaşlıqdan tədricən kənarlaşdığı, su ölkədə Rusiya hərbi kontingentinin fəaliyyət çərçivəsinin getdikcə daraldığı və qarşıdan gələn dövrdə son qoyulmasının planlaşdırıldığı, həmçinin strateji məqsədin Ermənistanda Rusiyaya qarşı yeni cəbhə yaradılması olduğu nəzərə alınaraq, Ermənistanın tamamilə Qərbin nəzarətinə keçməsi prosesinin yürüdüldüyü aydınlaşır.

**Politoloq Azər Qasımov "Şərq"ə bildirib ki, İranın Ermənistana olan məlum yaxınlığının müsəlman ölkəsinə yaraşmayan hal olduğu artıq Azərbaycanda təəccüb doğurmur. Biz artıq İranın iç üzünü görmüşük və istəyini başa düşmüşük:** "İrandan Azərbaycanın heç bir gözləntisi yoxdur. Sadəcə qonşu dövlət kimi İranın varlığını qəbul edirik və Ermənistana necə münasibət bəsləyiriksə, molla rejiminin idarə etdiyi İrana da elə münasibət bəsləyirik. Ermənistan açıq düşməınimizdirsə, hansı ki sülh müqaviləsi bağlanmayana kimi bu belədir, İran da özünü Azərbaycana düşmən olmasa da, dost olmayan ölkələri sırasına daxil etməyi bacarıb. Bunda isə Azərbaycanın heç bir rolu yoxdur. İran rejimi bunu belə həddə gətirib və əlaqələri daha da pisləşdirmək yolunda addımlarına davam edir. Ermənistanın yenidən silahlandırılmasında Tehranın Hindistan və Fransa ilə birliyi Azərbaycana qarşı açıq meydan oxumaqdır. Tehran rejimi özünün mahiyyətini artıq bəlli edib. Bu rejim nə dinə-etiqada xidmət edirsə, bircə islama xidmət etmir. İran rejimi özünü müsəlmanlara divan tutan Hindistan rejimindən fərqli aparmayaraq islam düşmənlərindən fərqlənmir, hətta hərəkətləri ilə onlardan geri qalmır. Fransa və Hindistanın Ermənistanı silahlandırmasına canla-başla imkan yaradan Tehran rejimi bunda maraqlı olduğunu göstərir. Təbii ki, Azərbaycanın İranın bu hərəkətinin önünü bilavasitə kəsmək imkanı yoxdur. İran bunu ilk dəfə etmir. 44 günlük müharibədə də eyni işi görmüşdü. Amma Azərbaycan bu hərəkəti hələ ki izləyir. Ermənistanın silahlanmasını nəzarətdə saxlayır. Ehtiyac duyulan halda həmin silahların yerindəcə məhv edilməsi an məsələsi olacaq. İran təbii ki, bu hərəkətinin cavabını gec-tez alacaq. Bunun yolları var və zamana ehtiyac var. Günün birində Cənubi Azərbaycan Respublikası yaradılanda molla rejiminə etdikləri pisliklər yadlarına salınacaq".

İsmayıl Qocayev

# Ermənistanın bütün cəhdləri əbəsdir

## Separatçı tör-töküntülərin fəaliyyətlərinin hər hansı bir nəticəsi olmayacaq

**Özünü buraxmış və artıq mövcud olmayan Qarabağdakı qondarma rejim hazırda Ermənistanda baş qaldırır. Görünən odur ki, Nikol Paşinyan hakimiyyəti də onların fəaliyyəti üçün şəraiti təmin edir. Separatçılar fəaliyyət əhatəsini genişləndirərək Qərb təmsilçiləri ilə də görüşlərə can atırlar. Bu proses davam edəcəyi təqdirdə, Ermənistanın ağır nəticələrlə üzləşəcəyi şübhə doğurmur. Azərbaycan dövləti Qərbi Azərbaycanı bəyan edə bilər.**



"Azərbaycan suverenliyimizə təhdid törədə biləcək istənilən addımların qarşısını almağa qadirdir"

Əslində, separatçı tör-töküntüləri aktivləşdirən məsələnin nə olduğu bəllidir. Məlumdur ki, son günlərdə Ermənistan Xankəndidə keçmiş separatçılar tərəfindən tikilən bəzi binaların sökülməsinə siyasi don geyindirməyə çalışır. Halbuki orada bir neçə tikili məhz separatçı-xuntanın çirkin fəaliyyəti üçün inşa edilmişdir. Əlbəttə, həmin şər yuvaları məhv edilməlidiyi və edildi. Digər tərəfdən, Qarabağda 30 il ərzində mövcud olan rejim qanunsuzdur. Heç bir dövlət bu rejimi tanımayıb. Beynəlxalq hüquq da qondarma rejimin mövcudluğuna imkan vermir. Bu da o deməkdir ki, oradakı separatçıların tikdikləri binalar da qanunsuzdur. Yada salaq ki, işğal dövründə Şuşada da "parlament binasının" tikintisi gedirdi. Amma 44 günlük müharibə vaxtı həmin tikili dağıdıldı. Azərbaycan Ordusu Ermənistanın növbəti siyasi təxribatına və tarixi saxtalaşdırma cəhdinə imkan vermədi. İndi həmin binanın yerində "Şuşa" hoteli tikilib. İndi bəzi Ermənistan rəsmiləri bu binaların sökülməsini sülh prosesinə zərbə kimi qələmə verməyə çalışırlar. Halbuki bunlar tamamilə fərqli məsələlərdir. Azərbaycan, əksinə, etimad mühitinin yaranmasına, təkcə hakimiyyətlər deyil, həm də xalqlar arasında münasibətlərin normallaşmasına çalışır. Azərbaycan indi işğaldan azad olunmuş bütün ərazilərdə, o cümlədən vaxtilə qondarma rejimin mövcud olduğu Xankəndidə geniş yenidənqurma-bərpa işləri həyata keçirir. Əslində, bu, geniş mənada həm də tarixin bərpasıdır. Azərbaycan xalqı başqasının yazdığı tarixə boyun əymir, əyməyəcək. Azərbaycan öz tarixini özü yazır və öz yazdığı tarixi yaşayır.

**Millət vəkili Aydın Mirzəzadə "Şərq"ə açıqlamasında bildirib ki, bununla Azərbaycana siyasi təzyiq göstərməyə çalışırlar. Deputat vurğulayıb ki, hazırda sülh müqaviləsi üzərində iş gedir:** "Beynəlxalq hüquqa əsasən sülh müqaviləsi iki qonşu ölkə arasında normal münasibətlərin qurulmasının əsasını müəyyən edir. Amma Ermənistan çalışır ki, bura müxtəlif ya Azərbaycanda "erməni icması" ilə bağlı ayrıca bənd salsın, yaxud da sərhəd məsələsində Azərbaycanın müəyyən əraziləri ona güzəştə getməsinə nail olsun. Azərbaycanla münasibətlərdə sabah hansısa problem yaradacaq bir məsələnin əsasını qoysun. Ancaq Azərbaycan belə məsələləri hər zaman diqqətdə saxlayır. Heç zaman imkan verməz ki, İrəvandan Bakıya problemlər yaşadılsın. Belə bir bir problem 200 il əvvəl, dövlət müstəqilliyimizi itirdikdən sonra baş verdi. 100 il bundan əvvəl müstəqilliyimizin bərpasında xaricdən müəyyən dairələrin gənc Azərbaycan dövlətinə təzyiqi nəticəsində İrəvanı, Göyçəni, Zəngəzuru itirdik. İmkan verməli olmaz ki, gələcək nəsillər indiki dönəmdə atılan hansısa səhv addımın nəticələrini dadsınlar. Əlbəttə, qətiyyən imkan verməyəcəyik. Ermənistanın bütün cəhdləri əbəsdir. Separatçı tör-töküntülərin fəaliyyətlərinin hər hansı bir nəticəsi olmayacaq. Azərbaycan suverenliyimizə təhdid törədə biləcək istənilən addımların qarşısını almağa qadirdir. Əgər separatçıların qalıqları hər hansı xarici ölkə ilə əlaqəyə keçərsə, Azərbaycan tərəfinin həmin ölkəyə sual ünvanlamağa haqqı yaranacaq. İndi bu məsələnin də arxasında Fransanın dayandığını, Parisin anti-Azərbaycan mövqeyi ilə bağlı olduğunu birbaşa demirik. Onsuz da Fransanın bu siyasəti onun özünə çox ciddi ziyan vurur".

İsmayıl Qocayev

# Erməni mediası məqsədli dezinformasiya yayır

## Türkiyənin Ermənistan sərhədinə texnika yığmasına ehtiyac yoxdur





"Türkiyə ordusunun kiçik bir hərbi hissəsi bəs edər. "Komanda" birliyi bircə saat ərzində Ermənistanın bu yanından girib, o yanından çıxar"

**Türkiyə artilleriya sistemlərini və minaatan qurğularını Ermənistanla sərhədə yerləşdirib.**

**Bu iddia ilə Gümrüdən olan erməni hüquq müdafiəçisi Karapet Poqosyan çıxış edib.**

O bildirib ki, Türkiyənin sərhədə yerləşdirdiyi hərbi texnika 155 mm-lik təkərli artilleriya və 120 mm-lik minaatanlardır və bu, misli görünməmiş hazırlıqdır: "Onları sərhəddən gözlə görmək mümkündür. Son 100 ildə belə bir hadisə baş verməyib. Orada sərhədçilər həmişə olur, indi artilleriya sistemləri də yerləşdirilib. Bura Canfida istiqamətidir. Sərhəd qoşunlarında artilleriya yoxdur, çünki onların funksiyası sərhəd pozucularını həbs etməkdir, artilleriya isə hücum silahıdır. Türkiyə qeyri-sabitliyin olduğu sərhədyanı ölkələr istiqamətində hücum silahları yerləşdirir. Fikrimcə, bütün bunlar Ermənistan hakimiyyətinin anti-Rusiya siyasətindən qaynaqlanır. Böyük ehtimalla, bu hakimiyyət rusları təxribata çəkməyə çalışacaq, bundan sonra Türkiyə Ermənistana müdaxilə edəcək".

K.Poqosyan hesab edir ki, Rusiya sərhədçiləri "Zvartnots" hava limanından çıxarıldıqdan sonra Türkiyə-Ermənistan sərhədindən də çıxarılacaq: "Ermənistanın sərhədlərinin mühafizəsi ilə bağlı problemi var, hətta "Zvartnots"da sərhəd xidmətini təşkil etmək imkanı yoxdur. Çünki Ermənistanda heç vaxt mütəxəssis olmayıb, Vazgen Sarkisyan adına hərbi instituta ilk mütəxəssislər yalnız bu il qəbul edilib, onların da sayı cəmi 7 nəfərdir. Ermənistan-Türkiyə sərhədini qorumaq üçün də kifayət qədər resursumuz yoxdur. Bütün bunların fonunda Türkiyə artilleriyasını sərhədə yaxınlaşdırır, oradan atılacaq raket düz xətt üzrə İrəvana çatacaq".

**Politoloq Elçin Xalidbəyli isə "Şərq"ə açıqlamasında deyib ki, ermənilərin yaydığı məlumatlar adətən manipulyasiya xarakteri daşıyır və reallıqla heç bir əlaqəsi olmur. Bu baxımdan Türkiyə artilleriya sistemlərinin və minaatan qurğularının Ermənistanla sərhədə yerləşdirilməsi ilə bağlı yayılan məlumatlar da şübhə doğurur:** "Hazırkı situasiyada Türkiyənin Ermənistanla savaşa girmək niyyətinin olduğunu düşünmürəm. Buna ehtiyacının olmadığı bir yana, Ermənistan Türkiyənin savaşacağı bir ölkə deyil axı! NATO ölkəsi olan Türkiyə üçün Ermənistan ordusu kiçicik bir zərrədir.

Əgər Türkiyə Ermənistana hücum planlasa belə, bunun üçün xüsusi hazırlıq tədbirləri görmək, qeyd edildiyi kimi artilleriya sistemlərini və minaatan qurğularını Ermənistanla sərhədə yerləşdirməsinə ehtiyacı yoxdur. Ermənistan ordusu ağır məğlubiyyətə məruz qalıb, darmadağın edilmiş bir sistemdir. Türkiyə ordusunun kiçik bir hərbi hissəsi, "Komanda" birliyi bircə saat ərzində Ermənistanın bu başından vurub, o başından çıxar. Ona görə Ermənistan mediasının bu məlumatı məqsədli şəkildə yaydığını güman edirəm. Ermənistan, bəlkə də, Qərbdəki havadarlarına Cənubi Qafqazda geopolitik gərginliyin artdığını göstərmək üçün bu cür uydurmalara əl atıb. Hər halda hadisələrin sonrakı inkişaf istiqamətlərini izləmək daha məqsədəuyğundur".

Şəymən

**Fransa Afrika siyasətinin uğursuzluğundan sonra Qarabağda "sülhməramlı obrazı" yaratmağa çalışır.**

**Bunu Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova deyib.**



Onun fikrincə, Parisin Cənubi Qafqazda fəallığının artması Afrika siyasətindəki uğursuzluğun kompensasiyasıdır.

Zaxarovanın sözlərinə görə, Fransanın Qafqazdakı cəhdlərinə "sülhməramlı səylər" də daxildir.

# Fransa Afrika uğursuzluğunu kompensasiya edə bilməyəcək

## "Türkiyə Fransanın Qafqaza qollarının uzandığını görsə, onu birdəfəlik dibindən kəsər"

"Bunun sülhməramlılıqla heç bir əlaqəsi yoxdur, məhz bizim ölkə bütün sülhməramlı rolu Qarabağ məsələsinin nizamlanması kontekstində vasitəçi kimi öz üzərinə götürdü və yerinə yetirdi. İndi ən çətin mərhələ başa çatdığından ümid edirik ki, Fransa NATO üzvü kimi bir daha ocağı qızışdırmağa başlamayacaq", - Zaxarova bildirib.

**Zaxarovanın söylədiklərini "Şərq"ə dəyərləndirən AĞ Partiya sözçüsü, siyasi şərhçi Cavanşir Abbaslı deyib ki, Zaxarovanın fikirlərinin əksəriyyəti ilə razılaşır:**

"Amma Rusiya tərəfinin sülhməramlı missiyanı öz üzərinə götürərək layiqincə fəaliyyət göstərməsi istisnadır. XİN sözçüsü vəzifə borclarını layiqincə yerinə yetirdiklərini deyir, lakin belə olmadığı hər kəsə məlumdur. Fransa sülhməramlılarının regiona gəlməsi təqdirində vəziyyətin daha betər olacağı isə yüz faizdir. Çünki dünyanın ən qəddar, işğalçı ölkələri arasında Fransa ilk sıralarda qərarlaşır. Onu da əminliklə deyək ki, müstəmləkə ölkələri sırasında Fransa ən çox insan qırğını törədən ölkə olaraq hər zaman lənətlənir. XIX əsrdə Afrikanın yarısını işğal edərkən fransızlar milyonlarla insanı vəhşicəsinə öldürüblər. Əlcəzairdə ötən əsrin ortalarında başlayan milli azadlıq hərəkatı zamanı Fransa 1.5 milyondan çox insanı qətlə yetirib. Amma Zaxarovanın da dediyi kimi, Fransanın Afrika siyasəti uğursuz oldu. O zamandan indiyə qədər üzünü o tərəf, bu tərəfə çevirməkdədir".

**Analitik qeyd edib ki, Qarabağ savaşında Fransa ofsaydda qalandan sonra üzünü Cənubi Qafqaza çevirib:** "Amma Afrika uğursuzluğunu kompensasiya edə bilməyəcək. Çünki buna öncə regionun ən güclü ölkəsi sayılan Rusiya imkan verməz. Bu sıraya qardaş Türkiyə və İranı da daxil etmək olar. Cənubi Qafqazın lider ölkəsi Azərbaycan heç bir vəchlə Fransanın bu regiona ayaq açmasına imkan verməz. Zaxarova Fransanın NATO ölkəsi kimi ortalığı qızışdırmayacağına ümid etdiklərini desə də, Türkiyə kimi NATO-nun ikinci ordusuna sahib ölkə də var. Türkiyə Fransanın Qafqaza qollarının uzandığını görsə, onu birdəfəlik dibindən kəsər. Bir sözlə, "ilanın ağına da lənət, qarasına da". Elə Fransası da, Rusiyası da "bir bezin qırağıdır". Sadəcə, Zaxarova Fransanın fəallaşdığını görür və ona keçmişini xatırlatmağa çalışır. Baxmayaraq ki, müstəmləkə siyasətində olan ölkəsi heç də Fransadan geri qalmır. XİN sözçüsü həm də Fransanın Cənubi Qafqaza müxtəlif yollarla soxulmasına mane olan ölkələrə də xəbərdarlıq edir. Düşünürəm ki, bu, düz taktiki gedişdir. Bir sözlə, narahat olmağa dəyməz. Fransa heç zaman bu regionda söz sahibi, təsir dairəsi güclü olan ölkələrdən biri olmayacaq".

Şahanə Ziyad



# Turan yolunun bünövrəsi hazırlanır

## Qazaxıstan Türkiyədən sonra Türk Dövlətləri Təşkilatında təmsil olunan ən böyük dövlətlərdən biridir

**Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Azərbaycanda səfərdədir. Dünən rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan prezidenti Kasım-Jomart Tokayev ilə məhdud tərkibdə görüşü keçirilib. Azərbaycan-Qazaxıstan arasında sənədlərin imzalanması mərasimi baş tutub.**

Sonra Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın birinci iclası keçirilib. Prezident İlham Əliyev vurğulayıb ki, Qazaxıstan və Azərbaycan iki qardaş dövlətdir: ”Xalqlarımız ictimai-siyasi formasiyadan asılı olmayaraq, uzun əsrlər boyu sülh, qardaşlıq, əməkdaşlıq şəraitində yaşayır. İki müstəqil dövlət olaraq isə artıq 30 ildən çoxdur ki, həm beynəlxalq strukturlarda, həm də ikitərəfli formatda fəal qarşılıqlı fəaliyyət göstərir. Son vaxtlar qarşılıqlı səfərlərimizin dinamikası çox illüstrativdir və bu, münasibətlərə yeni dinamizm verildiyini göstərir”. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev deyib ki, Qazaxıstan-Azərbaycan Ali Dövlətlərarası Şurasının iclasının ilk dəfə keçirilməsi tarixi hadisədir: ”İqtisadi-ticari və investisiya əməkdaşlığımızla, beynəlxalq arenada qarşılıqlı fəaliyyətimizlə bağlı demək olar ki, bütün məsələlərin müfəssəl müzakirəsini apardıq və ümumi nəticələrə gəldik. Bu, onu göstərir ki, Qazaxıstan və Azərbaycan həqiqətən strateji tərəfdaşlardır”. Azərbaycan Mərkəzi Asiya ölkələri, o cümlədən regionun türk dövlətləri ilə münasibətlərə mühüm əhəmiyyət verir. Son illər Prezident İlham Əliyevin Mərkəzi Asiya ölkələrinə, region dövlətlərinin başçılarının isə Azərbaycana səfərləri müntəzəm xarakter alıb. Bu isə təbii olaraq ölkələrarası əlaqələrin inkişafına, yeni əməkdaşlıq imkanlarının yaranmasına gətirib çıxarıb. Azərbaycanın sıx, tarixi əlaqələrə malik olduğu türk dövlətlərindən biri də Qazaxıstandır. Azərbaycan və qazax xalqları arasında mövcud olan tarixi, mədəni və dini ortaqlıqlar iki ölkə arasında əlaqələrin əsasını təşkil edir. Ölkələrimizin ənənəvi dostluq və qardaşlıq əlaqələri əsrlərə söykənir. Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında diplomatik əlaqələr 1992-ci il avqustun 30-da yaradılıb. 1993-cü ilin yanvarında Qazaxıstanın Azərbaycanda, 2004-cü ilin martında isə Azərbaycanın bu ölkədə səfirlikləri fəaliyyətə başlayıb. 2008-ci ilin sentyabrında Azərbaycanın Qazaxıstanın Aktau şəhərində baş konsulluğu açılıb. Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstana son səfəri 2023-cü il noyabrın 2-də olub. Dövlətimizin başçısı Türk Dövlətləri Təşkilatının ”Türk Əsri” çağırışı altında Astanada keçirilən 10-cu yubiley Zirvə görüşündə iştirak edib. Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev isə ötən il noyabrın 24-də Bakıda keçirilən BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının - SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşündə iştirak etmək üçün ölkəmizdə işgüzar səfərdə olub. Dövlət başçılarımızın sıx münasibətləri ölkələrimiz arasında əlaqələrə mühüm töhfə verir, ikitərəfli əməkdaşlığın yüksələn xətlə inkişafına və daha da güclənməsinə xidmət edir. Ümumiyyətlə, Azərbaycan və Qazaxıstan prezidentlərinin son illər qarşılıqlı yüksəksəviyyəli səfərləri ikitərəfli münasibətlərə müsbət təsirini göstərib. İkitərəfli əlaqələrə gəldikdə qeyd etmək yerinə düşər ki, Azərbaycanın işğaldan azad edilmiş Füzuli şəhərində Qazaxıstan hökuməti tərəfindən Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi tikilib. Bu addım Azərbaycan Prezidenti və xalqı tərəfindən də yüksək qiymətləndirilir. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Azərbaycana dövlət səfərindən əvvəl verdiyi müsahibədə Füzuli şəhərindəki Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin ölkələrimizin və xalqlarımızın dostluğunun, qardaşlığının, qarşılıqlı dəstəyinin daha bir simvoluna çevriləcəyini deyib.

**Professor Cümşüd Nuriyev ”Şərq”ə açıqlamasında bildirib ki, Azərbaycanın Qazaxıstanla münasibətləri çox yüksəkdir. Professorun sözlərinə görə, Qazaxıstan Türkiyədən sonra Türk Dövlətləri Təşkilatında təmsil olunan ən böyük dövlətlərdən biridir:** ”Turan ideyasının da müəllifi Qazaxıstan və Türkiyədir. Türk Dövlətləri Təşkilatının doğum şəhadətnaməsi də 2009-cu ildə Azərbaycanda yazılıb. Bu siyasət günümüzdə də davam etdirilir. Tokayev həm Azərbaycanın Qarabağda həyata keçirdiyi layihələri dəstəkləyir, həm də bizimlə işləmək istəyir. Füzulidə Kurbanqazı uşaq yaradıcılıq məktəbi də birgə fəaliyyətin nümunəsidir. Təbii ki, bu başlanğıcdır, qarşıda çoxlu layihələr var. Ötən gün politoloq Stanislav Tarasov adından bir məlumat yayıldı ki, Priston Universitetinin professoru, tarixçi Bernard Lyus islam dövlətlərini parçalamaq layihəsini hazırlayıb. Həmin layihədə göstərilib ki, ”Dağlıq Qarabağ” ayrıca ”dövlət” kimi tanınmalıdır. Cənab Prezident andiçmə mərasimində bu məsələni təsadüfən qaldırmadı. Dedi ki, Azərbaycan bir çox daşları yerindən tərpədib. Ona görə də Azərbaycana qarşı səlib yürüşü olacaq. İlham Əliyev Azərbaycanı çox böyük bir bəladan, növbəti yüzillik bir təhlükədən qurtardı. Həmin təhlükə sadəcə keçmiş ”Dağlıq Qarabağ”la bitmirdi, Azərbaycanın bir neçə rayonu da qurulacaq ”Kürdüstana” birləşdirilirdi. Layihənin arxasında güclərin əsas məqsədi o idi ki, 2020-ci ildən sonra Cənubi Qafqazda yaranmış vəziyyəti öz xeyrinə dəyişsinlər. Məqsəd türk-islam dövlətlərini, Türk dünyasını parçalamaqdır. Bu da Qərbin yeni layihəsidir. Lakin gizli sənəd təsadüfən ələ keçib. Başqa açılmayan konturlar da var və şübhə etmirəm ki, Tokayevlə görüşdə bu məsələlər müzakirə olunub. Peşəkar siyasətçi Tokayevin Azərbaycana səfəri, cənab İlham Əliyevlə görüşü, verdiyi mesajlar, layihələrdən danışması göstərir ki, məqsəd TDT-nin gələcəyini və inkişafını daha rahat istiqamətə yönəltməkdir”.

**İsmayıl Qocayev**

# İndi də Yunanıstan ön plandadır

## Ermənistanın silahlandırılmasının arxasında duran əsas faktor Fransadır



**Fransadan sonra Ermənistanın himayəçisi missiyasını üzərinə götürən Yunanıstan sürətlə yoluna davam etməkdədir. Yunanıstanın müdafiə naziri Nikos Dendias ”Naftemporiki” qəzetinə müsahibəsində deyib ki, Afina Qarabağ münaqişəsindən çıxarılan dərsləri nəzərə alaraq, İrəvanla əməkdaşlıq edəcək.**

Dendiasın sözlərinə görə, dronlar və əks-dron sistemlərindəki texnoloji inkişafın qlobal miqyasda müharibə aparma tərzimizi dəyişdiyini inkar etmək olmaz: ”Bu yaxınlarda Ermənistana səfərim zamanı onların müasir döyüş meydanında istifadəsi haqqında ətraflı öyrəndim. Nəzərinizə çatdırım ki, bu ölkə, silahlı qüvvələr kütləvi şəkildə pilotsuz təyyarələrdən, o cümlədən ”Bayraqdar”dan istifadə edən bir ordunun hücumuna məruz qalmış ölkədir. Eyni səbəbdən biz Ermənistanla ikitərəfli müdafiə sahəsində əməkdaşlıq sazişləri çərçivəsində və Qarabağdakı münaqişədən əldə edilmiş dərsləri nəzərə alaraq əməkdaşlıq edəcəyik”. Nazir vurğulayıb ki, Yunanıstan bu texnologiyaların əhəmiyyətini dərk edir və yeni ekosistem çərçivəsində bu sahədə öz imkanlarını gücləndirmək üçün fəal işləyir: ”Biz qonşu ölkələrlə bu xüsusi boşluğu aradan qaldırmaq, həmçinin Yunanıstan ərazisini əhatə edən pilotsuz uçuş aparatları əleyhinə günbəz yaratmaq üçün sürətlə çalışacağıq”. Göründüyü kimi, Yunanıstan da Ermənistanın silahlanmasında və regionda gərginliyin artmasında maraqlı ölkələrdən biridir və Fransadan heç də geri qalmır. Bir neçə gün öncə Dendias fransalı həmkarı Lekornunun ardınca İrəvana səfər etmişdi.

**Politoloq Turan Rzayev ”Şərq”ə deyib ki, Yunanıstanın müdafiə naziri Nikos Dendiasın Ermənistana səfəri regionda baş verən son proseslər və sülh danışıqları fonunda diqqət çəkir. Aydın məsələdir ki, Ermənistan sürətli silahlanma prosesində birdən çox ölkə ilə əməkdaşlıq edir:** ”Prosesin sistematik və vahid mərkəzdən idarə edildiyi də istisna deyil. Yunanıstan müdafiə naziri N.Dendias Fransa müdafiə naziri Sebastyan Lekornudan sonra İrəvana gəlib. Bundan başqa, səfərin Ermənistan Baş naziri Nikol Paşinyanın Fransa və Yunanıstana gedişindən sonra baş tutması diqqət çəkir. Yunanıstanın Ermənistanı silahlandırmasının arxasında duran əsas faktor Fransadır. Məsələ ondadır ki, Paris Ermənistanı silahlandırma prosesinə Yunanıstanı cəlb edərək diqqəti öz üzərindən yayındırmağa çalışır. Məsələn, Yunanıstanın müdafiə naziri Nikos Dendias Ermənistana səfəri zamanı İrəvanda əməkdaşlığın müxtəlif istiqamətlərini müzakirə edib. Bunlardan ən diqqətçəkəni isə heç şübhəsiz, Yunanıstan, Yunan Kipri və Ermənistan arasında hərbi ittifaqın gücləndirilməsi üçün yeni təşəbbüslər araşdırılacağını bildirməsidir.

Bu detal, əslində, Fransanın Cənubi Qafqazla bağlı planı haqda müəyyən fikir irəli sürməyə əsas verir. Paris bu günə qədər Ermənistanı birbaşa özü silahlandırırdısa, artıq bunu Yunanıstan və Yunan Kipri üzərindən etmək istəyir. Bu addım həm də Bakı ilə mövcud iqtisadi maraqların qorunmasına hesablanıb. Fransanın ”Total” şirkəti ”Şahdəniz” yatağında paya malikdir və bunun hesabına qazanc əldə edir. Paris bundan məhrum olmaq istəmir. Lakin regionda gərginlik yaradıb Bakının zəifləməsində də maraqlıdır. Buna görə də özü ikinci plana keçərək prosesi Yunanıstan, Yunan Kipri və Ermənistan hərbi ittifaqı kontekstində pərdələməyə çalışır”.

Məsələ ondadır ki, Paris Ermənistanı silahlandırma prosesinə Yunanıstanı cəlb edərək diqqəti öz üzərindən yayındırmağa çalışır

**Ekspertin sözlərinə görə, Fransa paralel olaraq Ermənistanın silahlanmasına xarici aktorları cəlb edərək Azərbaycanı mühasirəyə almağa çalışır:** ”Məsələn, İranla Hindistanın da Ermənistanı silahlandırması və Parisin həmin ölkələrlə təmasda olması bunu deməyə əsas verir. Bu həm də məsələnin psixoloji tərəfidir və Paris Bakının prinsipial mövqeyini psixoloji olaraq qırmaq istəyir. Fransa Ermənsitanın silahlandırılması prosesi kontekstində həm də Azərbaycanın iqtisadi gücünü bölməyi düşünür. Hindistan Azərbaycan neftinin, Yunanıstan isə Azərbaycan qazının əsas alıcılarındandır. Bundan başqa isə Ermənistana göndərilən silahlar əsasən Gürcüstan üzərindən ötürülür. Gürcüstan isə Azərbaycanın Avropaya nəql etdiyi nef və qazın ötürüldüyü əsas ölkədir. Parisin əsas həmləsi Ermənistanın silahlanmasına Yunanıstan, Hindistan, Gürcüstanı cəlb edib, bunu bacardığı şəkildə qabardaraq Bakının sözügedən ölkələrlə münasibətlərini pisləşdirmək, növbəti mərhələdə isə iqtisadi sazişləri pozmaqdır. Aydındır ki, bütün prosesləri rəsmi Bakı görür və hərtərəfli qiymətləndirir. Azərbaycan xarici siyasətini milli və iqtisadi maraqlar üzərindən formalaşdırıb. Yəni Bakı iqtisadi maraqlarını təhlükəyə atacaq radikal addımlar atmır. Bununla belə, Ermənistanın silahlandırılması ciddi təhdid elementi deyil. Azərbaycan İsrail, Türkiyə, Pakistan, Çin kimi ölkələrlə hərbi sahədə əməkdaşlıq edir. Bu əməkdaşlıq xaricdən ehtimal hücumların qarşısını alacaq həcmdədir. Nəticə etibarilə Ermənistan hər nə qədər silahlansa da, bu silahları istifadə edəcək canlı qüvvəsi yoxdur”.

**İsmayıl Qocayev**



# Böyük Britaniya ilə 32 ildir əməkdaşlıq davam edir

## Azərbaycan üçün Qərbdə belə bir müttəfiqin olması kifayət qədər vacibdir

**Bu gün Azərbaycan və Böyük Britaniya arasında diplomatik münasibətlərin qurulmasının 32-ci ildönümüdür.**

Bu barədə Böyük Britaniyanın Azərbaycandakı səfiri Ferqus Auld “X” hesabında paylaşım edib.

“Biz Britaniya səfirliyiyik, əlbəttə, Azərbaycan və Böyük Britaniya arasında diplomatik münasibətlərin 32 illiyini qeyd edirik!”, - diplomat qeyd edib.

**İki ölkə əməkdaşlığından danışan Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli “Şərq”ə bildirib ki, Azərbaycan və Britaniya əlaqələri strateji münasibətlər sayılır:** “İki ölkənin bir-birinə əməkdaşlığındakı birinci amil enerji diplomatiyasıdır. Eyni zamanda bu, enerji təhlükəsizliyi aspektindən də ölçülür. Britaniyanın ənənəvi imperial təcrübələri çox genişdir. London strateji, coğrafi mövqeyinə görə digər ölkələrə baxan bir dövlətdir. Bu baxımdan Azərbaycanın coğrafiyası imkan verir ki, Britaniya onun regional mövqeyindən faydalana bilsin. Azərbaycan üçün də Qərbdə belə bir müttəfiqin olması kifayət qədər vacibdir. Azərbaycanla Britaniyanın beynəlxalq təşkilatlarda və xüsusi proseslər zamanı etdiyi strateji əməkdaşlıqlar mövcuddur. Həmçinin bu, BP şirkətinin gözü ilə proseslərə baxmağa imkan verir”.

*Qeyd edək ki, Azərbaycanla Böyük Britaniya arasında 11 mart 1992-ci ildə diplomatik münasibətlər barədə saziş imzalanıb.*

**Şahanə Ziyad**

# Bakı-Sumqayıt yolu keçilməz qalaya çevrilir

**Bakı-Sumqayıt yolu 6 zolaqlı olsa da, paytaxta çatan hissədə 2 zolaqlı olur və nəticədə sıxlıq yaranır.**

**Bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində keçirilən ictimai dinləmələrdə deputat Fəzail Ağamalı bildirib.**




İllərdir ölkənin ən aktual problemi ilə bağlı müzakirələr aparılır, təkliflər verilir, amma hələ də konkret addımlar yoxdur

”Mən bu gün Milli Məclisə gəlmək üçün saat 8:00-da Novxanıdan yola çıxmışam, 10-a 5 dəqiqə qalmış burada olmuşam. Bu hal isə hər gün yaşanır. Bunun aradan qaldırılması üçün yüngül konstruksiya ilə Yaponiyadakı kimi 2-3 mərtəbəli yollar tikilə bilər”, - deyə o qeyd edib.

Deputat əlavə edib ki, parklanma məsələsi vaxtilə yol infrastrukturunun qurulmasında yol verilmiş nöqsanlarla bağlıdır. Şəhərdə sıxlığı aradan qaldırmaq üçün şəxsi minik avtomobilləri avtovağzala və yaxud metroya qədər buraxıla bilər. Daha sonra insanlar ictimai nəqliyyatdan istifadə etsin. Bu, vaxtilə tətbiq edilmişdi.

Nəqliyyat eksperti İlqar Hüseynli də deputatın təklifini məqbul hesab edir.

**O, “Şərq” ə açıqlamasında bu məsələnin illərdir ölkənin ən aktual problemlərindən biri olaraq qaldığını deyib:** ”Bakı-Sumqayıt arası nəqliyyatın daha səmərəli təşkili istiqamətində müzakirələr, təkliflər aparılır, amma hələ də konkret addımlar yoxdur. O yoldan istifadə edən hamı yaxşı bilir ki, Xırdalan dairəsindən ”20 Yanvar” metrosuna qədər gəlib çıxmaq günün pik saatlarında mümkünsüz hala çevrilir”.

Ekspert məsələnin həllinin sadəcə bu istiqamətdə bir neçə ötürücü yolun inşasında görür: ”Problemin həlli üçün dünyanın böyük şəhərlərinin təcrübəsindən istifadə etmək lazımdır. Biz artıq çoxpilləli yol ötürücülərinin inşasını tətbiq etməliyik. Bunun xaricində məsələnin həlli yolu qalmır. Bakı Avtovağzalına çatmamış estakadalar üzərindən 2 və yaxud 3 yol ötürücüsünün inşasına başlaya bilərik. Bu ötürücülərin biri Biləcəri üzərindən birbaşa 9-cu mikrorayon istiqamətinə, digəri isə sağ istiqamətdə Yasamal üzərindən şəhərə girişi təmin edə bilər. Təbii ki, bu, mütləq hal deyil və bunun üçün kommunikasiya və lazımi infrastruktur təmin olunmalıdır. Bu, bəlkə də, qismən həmin yolu tıxacdan xilas edə bilər”.

*Mərtəbəli yollar vasitəsilə bir çox şəhərlərdə tıxac probleminin həll olunduğunu vurğulayan İ.Hüseynli Tokio, Pekin, Honq-Konq kimi şəhərləri misal göstərib:* ”Bakıda da bu təcrübədən istifadə etmək mümkündür. Sadəcə, nəzərə alaq ki, bu, kifayət qədər bahalı layihədir. Bunun həyata keçirilməsi üçün zamana da ehtiyac var. Çünki qısa zaman ərzində başa gələcək məsələ deyil. Ümumiyyətlə, bütün istiqamətlərdə layihələri dəyərləndirmək olar. Hansı daha ucuz və təhlükəsiz başa gələcəksə, onu reallaşdırmaq lazımdır. Mərtəbəli yollar tıxacdan çıxış üsullarından biridir”.

**Şəymən**

# Xarici agentura şəbəkəsinin fəaliyyətinə göz yuma bilmərik

## Dövlətin ən mühüm vəzifəsi vətəndaşının təhlükəsizliyini qorumaqdır

**“Toplum TV”-nin ofisində axtarış-əməliyyat tədbirlərinin həyata keçirilməsi Qərb institutlarının medianı, jurnalistləri və ayrı-ayrı şəxsləri Azərbaycan qanunlarına zidd şəkildə maliyyələşdirməsinə dair ciddi dəlillərin müəyyən edilməsi ilə bağlıdır.**



Bundan əvvəl ”Abzas Media” ilə bağlı oxşar tədbirlər həyata keçirilmişdi. Məlum istiqamət üzrə aparılan istintaq tədbirləri zamanı çoxsaylı qanun pozuntuları müəyyən edilmişdi. Faktlar geniş şəbəkə yaradılmaqla qanunsuz maliyyə maxinasiyalarının həyata keçirildiyinə və çirkli pulların yuyulduğuna dəlalət edir.

Maraqlıdır, son yaşanılanlar Azərbaycan mediasının nüfuzuna necə təsir göstərəcək?

**Mövzu ilə bağlı “Səs” qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev “Şərq”ə açıqlamasında bildirib ki, belə hadisələrlə Azərbaycan mediasının reytinqini, reputasiyasını aşağı salmaq olmaz:**

”Bu, agentura şəbəkəsinin missionerlik fəaliyyətidir. Onlar hər hansı dövlətin və yaxud beynəlxalq təşkilatın missioneri olaraq tapşırıqlar yerinə yetirib. Bu cinayət əməli faktı təsdiqlənib və cinayət işi açılıb. Yəni bunun media ilə əlaqəsi yoxdur. Sözsüz ki, belə halların yaşanmasını heç bir kəs istəməz. Bu cür hadisələr həm cəmiyyəti, həm də jurnalistikada illərdir canını qoymuş peşəkar jurnalistləri sarsıdır. Ancaq dövlətin ən mühüm vəzifəsi vətəndaşının təhlükəsizliyini qorumaqdır. Bu səbəbdən Qərbin və beynəlxalq təşkilatların missiyasını yerinə yetirən həmin missionerlər Azərbaycanla təhdid dili ilə danışa bilməzlər”.

**B.Quliyev vurğulayıb ki, dövlətimiz təhlükəsizliyini müdafiə etməyi yaxşı bacarır:** ”Bu cür addımların atılmasını başqa yerə yozaraq hadisələrlə manipulyasiya etmək düzgün deyil. Bunu insan hüquqlarının və media azadlığının pozulması kimi dəyərləndirmək olmaz. Sadəcə olaraq, bu missionerlik fəaliyyətinin aşkar olunması və Azərbaycan tərəfindən var olan siyasətin qorunması əməlidir”.

**Nəzrin**

# "İslamofobiya Fransada artıq ənənə halını alıb"

## Hikmət Babaoğlu: ”Bu, hər şeydən öncə Fransada son dövrlərdə formalaşan ümumi ictimai rəylə bağlıdır”




**Fransada Azərbaycan şairi Xurşidbanu Natəvanın heykəlinə qarşı vandallığın ardınca daha bir vəhşilik baş verib. Bu dəfə fransızlar La Roş-syur-Yon şəhərində yəhudi-fransız əsilli siyasətçi və yazıçı Simon Veylin abidəsini başqa formada təhqir ediblər. Vandallar abidənin yanına qırmızı boya töküblər, körpə gəlinciklər atıblar.**

Qeyd edək ki, Simon Veyl həm də Fransanın keçmiş həmrəylik və səhiyyə naziri olub. Xatırladaq ki, yanvar ayında Azərbaycanın tanınmış şairi Xurşidbanu Natəvanın Fransanın Evian lö Bən şəhərindəki heykəli vandalların hücumuna məruz qalmışdı. Heykəlin üzərinə qırmızı boya atılmaqla yanaşı (heykəlin gözləri, adının və Azərbaycan yazısının yazıldığı hissələrinə qırmızı boya çəkilib), onun özünə də zərər verilib (heykəlin burnu və barmaqları qırılıb). Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) İdarə Heyətinin sədri Fərid Şəfiyev Bakıda deyib ki, Fransada Xurşidbanu Natəvanın heykəlinə qarşı törədilən vandallıq aktı Azərbaycan əleyhinə yürüdülən siyasətin nəticəsidir. O xatırladıb ki, Natəvan xeyriyyəçi qadın, şairə olub: ”Bu baxımdan Fransada onun heykəlinə qarşı vandalizm aktının törədilməsinə biganə yanaşmaq olmaz. Çünki Azərbaycan hökuməti də Fransanın bu istiqamətdə heç bir addım atmadığını görür. Ona görə də nəticədə abidəni səfirliyimizin ərazisinə köçürdük. Bu vandallıq aktı Fransa hökumətinin siyasətinin nəticəsidir. Bununla bağlı heç bir üzr də istənilmədi. Bu, çox təəssüf doğuran hadisədir. Bu, bir işarə olmalı, bizi birgə fəaliyyətə sövq etməlidir”. F.Şəfiyev bildirib ki, qlobal media Qərb mediası tərəfindən tənzimlənir: ”Azərbaycan ayrı-seçkiliyə qarşı tədbirlər keçirəndə həmişə həmin medialarin tənqidinə tuş gəlir. Xüsusilə son bir-iki ildə bu tendensiya mövcuddur. COP29, Ermənistanla münasibətlərlə bağlı da tənqidi fikirlər səsləndirildi. İslamofobiya məsələsində də medianın təsirləri mövcuddur. Çünki çox vaxt birtərəfli yanaşma müşahidə olunur. Dünyadakı geosiyasi problemlərdə də islamofobiyanın təzahürləri özünü göstərir”.

**Millət vəkili Hikmət Babaoğlu “Şərq”ə bildirib ki, Fransada Xurşidbanu Natəvanın heykəlinə qarşı törədilən vandallıq aktından sonra yəhudi əsilli fransız siyasətçinin heykəlinə qarşı törədilən barbarlıq onun göstəricisidir ki, ksenofobiya, islamofobiya Fransada artıq ənənə halını alıb. Deputatın sözlərinə görə, bu, hər şeydən öncə Fransada son dövrlərdə formalaşan ümumi ictimai rəylə bağlıdır:**

”Çox təəssüf ki, belə neqativ rəyin kütləviləşməsində Fransa siyasətçiləri başda E.Makron olmaqla çox böyük rol oynayıblar. Makron bu gün Fransa kimi köklü dövləti beynəlxalq münasibətlər sistemində avantürist bir dövlətə çevirib. Onun siyasi bəyanatları, Ukraynaya ordu yeritməklə bağlı fikirləri, bəzən beynəlxalq təşkilatların, məsələn, NATO kimi ciddi bir siyasi-hərbi təşkilatın adından bəyanat verməsi Avropada artıq siyasi avantüra kimi qiymətləndirilir. Makronun davranışları Fransada ümumi ictimai rəyə təsir göstərir və ictimai rəyi aqressivləşdirir. Mədəniyyət yaradan xalqlar mədəniyyətin nə olduğunu bildikləri üçün digər xalqların yaratdığı mədəniyyətə xor baxmırlar. Bu gün hər hansı bir mədəniyyət xadiminin hədəfə alınması, hər hansı bir siyasətçinin hədəfə alınması, şübhəsiz ki, nəticə etibarilə universal dəyərlərin hədəfə alınmasıdır. Ona görə ki, sadəcə bu nümunələr qeyri-fransız olduğuna görə hədəfə gətirilir. Bax bu, ksenefobiyadır. Xurşidbanu Natəvan azərbaycanlı olduğuna görə, Simon Vel yəhudi əsilli olduğuna görə bir toplumun ictimai qəzəbinə tuş gəlirsə, bu artıq dünyagörüşü məsələsidir. Halbuki hər iki şəxs Fransa ilə aid olduqları toplumun əlaqələrinin güclənməsinə xidmət göstəriblər, əməkdaşlığın artmasına səbəb olublar. Əlbəttə, bu cür yanaşmalarla nə ölkə daxilində ictimai mühiti sağlamlaşdırmaq olar, nə də dövlətlərarası münasibətləri inkişaf etdirmək mümkündür. Fransa bu barədə düşünməlidir. Fransa əhalisinin az qala üçdə biri təqribən müsəlmanlardan ibarətdir. Yəni bu gün Fransada 19 milyondan çox müsəlman yaşayır. Belə olan halda mütləq dini tolerantlıq kimi multikulturalizm kimi dəyərlər önə çıxmalıdır”.

**İsmayıl Qocayev**



# Azərbaycan tolerantlığın mərkəzlərindən biri sayılır

## Əcnəbi qonaqların ölkəmizin illər ərzində qazandığı təcrübə və ənənə ilə tanış olması mühümdür

**Azərbaycan daha bir mötəbər beynəlxalq tədbirə ev sahibliyi etdi. Martın 8-9 tarixlərində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM), Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM), G20 Dinlərarası Dialoq Forumu və Bakı Təşəbbüs Qrupunun birgə təşkilatçılığı ilə ”Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə” mövzusunda beynəlxalq elmi konfrans keçirildi.**

Tədbir İslamofobiya ilə Beynəlxalq Mübarizə Gününə (15 mart) həsr olundu. Konfransda dünyanın 32 ölkəsindən alimlər, beynəlxalq təşkilatların ekspertləri, din xadimləri və qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak etdilər. Bakıda ikinci dəfə təşkil olunan tədbir Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynayır. Qeyd edək ki, uzun illərdir Azərbaycan islamofobiyanın fəsadları ilə üzləşib, hazırda Qərb mediası və siyasətçiləri tərəfindən ölkəmizə qarşı aşkar qərəzli kampaniya həyata keçirilir və konfransın bir hədəfi də bu mənfi tendensiyalara təkan verən siyasi, iqtisadi, mədəni, diskriminativ faktorların müəyyən edilməsi və onlara qarşı ortaq strategiyanın formalaşdırılmasıdır. Azərbaycan artıq beynəlxalq münasibətlərdə orta güc kimi çıxış edir. Bu il ölkəmiz COP29 və digər qlobal əhəmiyyətli tədbirlərə ev sahibliyi edəcək.

**Millət vəkili Ceyhun Məmmədov “Şərq”ə deyib ki, Azərbaycan dünyada tolerantlığın, multikulturalizmin mərkəzlərindən biri sayılır. Deputatın sözlərinə görə, bu gün Azərbaycanda bütün dinlərə, bütün etnik qruplara dövlət səviyyəsində ən yüksək diqqət və qayğı göstərilir:**

”Bir müsəlman ölkəsi olaraq Azərbaycan islamofobiya ilə üz-üzədir. Yəni bizə qarşı atılan addımların bir çoxunun səbəbi həm də bizim müsəlman olmağımızdır. O baxımdan belə tədbirlərin ölkəmizdə keçirilməsi çox önəmlidir. Sirr deyil ki, bəzi qüvvələr ”İslam” adı altında öz məkrli məqsədlərini həyata keçirməyə çalışırlar. Azərbaycan isə hər zaman dini ayrı-seçkiliyin əleyhinə olub və bu siyasətini davam etdirir. Dövlətimiz dini inanclara çox həssaslıqla yanaşır. Azərbaycan dünyada tolerantlığın, multikulturalizmin mərkəzlərindən biri sayılır. Dövlətimiz bütün dinlərə, bütün etnik qruplara dövlət səviyyəsində ən yüksək diqqət və qayğı göstərir. Əcnəbi qonaqların Azərbaycanın uzun illər ərzində qazandığı təcrübə və ənənə ilə tanış olması mühümdür. Əlbəttə ki, bu həm də, dövlətimizin növbəti uğurudur. Azərbaycan dünyada gedən proseslərə öz töhfəsini verir. Həm də hədəflərinə və məqsədlərinə çatmış olur”.

**İsmayıl Qocayev**

# "Hədiyyə verməyin mənşəyi qorxu və riyakarlıqdır"

## Aqşin Yenisey: “Bir uşağı olan valideynlərin əlinə özlərini üç uşağı olan valideynlərə göstərmək üçün 8 mart fürsəti düşür”

**8 Mart Beynəlxalq Qadınlar Gününün tarixinə nəzər salsaq, görərik ki, bu bayram heç də gözəlliyi və romantikliyi özündə ehtiva etmir. Beynəlxalq Qadınlar Günü özlüyündə qadın hüquqlarının dünyaya çatdırılmasının və bugünkü qadının daha azad olmasının tarixi səbəblərinin yada salınması üçün vurğulanacaq özəl gündür.**

167 il bundan əvvəl yəni, 1857-ci ilin 8 mart tarixində ABŞ-nin Nyu-York şəhərində geyim sektorunda işləyən qadınlar 16 saatlıq iş rejiminin 10 saata salınması, aşağı maaşa, uzun çalışma saatlarına, pis iş şəraitinə etiraz olaraq nümayişə çıxıblar.

1910-cu ildə alman sosialist qadın Klara Setkin 8 martın dünya qadınlar günü kimi qeyd edilməsinə nail olub. 1977-ci ildə BMT bu günü qadın günü kimi rəsmiləşdirib.

Azərbaycanda isə 8 Mart ilk dəfə 1917-ci ildə qeyd edilib. 1965-ci ildən keçmiş SSRİ-də 8 Mart - Beynəlxalq Qadınlar Günü istirahət günü elan olunub. 1975-ci il isə dünya qadınları üçün xüsusi əhəmiyyət daşıyır. Həmin ildə ilk dəfə olaraq BMT Beynəlxalq Qadınlar Gününü qeyd edir. İki il sonra isə qurumun ümumi qurultayında 8 Mart - Qadın Hüquqları və Beynəlxalq Sülh Günü olaraq rəsmiləşib.

Elə həmin tarixdən də qadınlarımız əks cinsin nümayəndələrindən diqqət, qayğı və hədiyyə gözləyirlər.

Ənənəyə uyğun olaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 8 Mart - Beynəlxalq Qadınlar Günü ilə bağlı sosial şəbəkə hesablarında paylaşım edib. Paylaşımda ”8 Mart - Beynəlxalq Qadınlar Günü” sözləri yer alıb.

Hər nə qədər qadınlarımız bu günü səbirsizliklə gözləsə də, hər il 8 mart gələndə ölkəmizdə bir ajiotaj başlayır. Xüsusilə də son illər sosial medianın və hədiyyəlik əşya mağazalarının kampaniyaları ilə bu gərginlik daha da artır. Fikirlər də həmişəki kimi haçalanır. ”8 martın bizə nə aidiyyəti var” deyənlərdən, ”8 Mart dində haramdır” deyənlərə qədər var.

Feministlər isə hesab edirlər ki, hökumət məişət zorakılığının qarşısını almaq üçün yetərli səy göstərmir, buna görə də ölkədə məişət zəminində qadın qətllərinin sayı artır, cinsi ayrı-seçkiliyə yol verilir, qadın hüquqları pozulur. Elə ölkə ziyalılarının, intellektual kəsimin də 8 Martla bağlı fikirləri fərqlidir.

*Məsələn, şair Qulu Ağsəs hesab edir ki, ”Azərbaycan qadını ilin 365 günü cəfakeşdir, 8 Mart da daxil. Bu saat təkcə Azərbaycanda yox, bütün dünyada yaşayan qadınları təbrik etmək keçir ürəyimdən. Əsas təbriklərsə şəhid analarına*



*"Beş manatlıq kişilər üç manatlıq kişiləri qadınlara aldıqları hədiyyələrin qiyməti ilə əzirlər"*

*düşür. Onları ayırmaq istəyirəm digər xanımlardan. Şəhid anaları, şəhid xanımları, şəhid qızlarını ayrıca təbrik edirəm. Biz bütün əvvəlki bayramlara görə də, bundan sonrakı bayramlara görə də onlara minnətdar olmalıyıq”.*

**Şair Aqşin Yenisey də 8 Marta münasibətini ”Şərq”ə danışıb:**

- 8 Mart başlanğıcda əmək bazarında çalışan qadınların günü kimi qeyd olunub. O qadınların ki, kişillərlə bərabər zavodlarla, fabriklərdə çalışırdılar, amma kişilərlə eyni hüquqlara sahib deyildilər. Məsələn, məşhur məktub var, Okler Ubertina adlı fransız qadın bələdiyyə sədrinə yazır ki, seçki hüququ vermirsinizsə, məndən vergi də istəməyin. İşin kökü o məktubdadır. Ondan əvvəl yüz il əvvəl fransız qadın filosof Olimpiya de Quj qadınlara hüquqlar tələb edən bəyannamə yazmışdı, onu da Avropa demokratiyasının baniləri edam etmişdilər. Yəni bu söhbətlərin üç əsrə yaxın tarixi var. 8 mart sonradan ilin bütün gününü 8 mart havasıyla yaşayanların bayramı oldu. Bu gün 8 martda heç yada düşməyən qadınlar zəhmətiylə dolanan qadınlardır. 8 marta donuz əti kimi yanaşanlar inandıqları dinin cəhalətinə bürünənlərdir. Onlar Məhəmməd peyğəmbərin öz xanımı Ayişə ilə münasibətləri haqqında oxusalar görərlər ki, islamın ilk ailəsində qadın necə azadlıqlara sahib olub.

**- Bu gün ölkəmizdə qadına verilən dəyər arzuolunan səviyyədə deyil?**

- Azərbaycanda islam və siyasi islam, demokratiyanın əsli və alveri, liberal dəyərlər və liberal dəyərsiləşdirmələr olduğu kimi, qadın azadlığı və azad qadınlar bölgüsü də var. Qadın azadlığı hüquqi anlayışdı və Azərbaycanda qanunla qorunur. Kişilər arasında da ölümlə nəticələnən mübahisələr baş verir. Azərbaycanda qadın qətllərinin çoxu qadınların hüquqlarının tapdalanmasından yaranmır, qadınların kişilərlə bərbərhüquqlu münasibətlərə sərbəst girə bilmələrindən yaranır. Biz o mübahisələrə girəndə ölümü gözə alırıq və bir-birimizi öldürdükdə də səsimiz çıxmır. Amma qadın kişiyə qarşı kişi kimi davrandıqda belə qadın olduğunun nəzərə alınmasını istəyir. Qadın kişilərlə bərabərhüquqlu münasibətə girdiyi bütün ölkələrdə öldürülür. İki il əvvəl təsadüfən qarşıma Fransada 2022-ci ildə öldürülən qadınların statistikası çıxmışdı. 129 qadın, yəni hər iki günə bir qadın öldürülmüşdü ”qadın azadlığının beşiyində”. Bizim feministlər ya psixoloji problemləri olan qadınlardır, ya da qrant layihələrini icra edirlər. Onları qadın azadlığı maraqlandırmır, onlara tapşırılıb ki, sıravi qadınlardan ”azad qadın” qayırsınlar. Sonra bu ”azad qadınlar” başqalarına lazım olacaq, məsələn, lazım olanda onlardan ”sülh quşu” düzəldəcəklər və s.

**- Aqşin Yenisey bir oğul, qardaş və həyat yoldaşı olaraq 8 Martı necə yola verir? Şablon təbrik, şeir, yoxsa xüsusi hədiyyə ilə?**

- Mən kənddə böyümüşəm. Kənddə münasibətləri mədəni yox, bəşəri dəyərlər tənzimləyir. Əli Kərimin ”Ata” şeirində olduğu kimi, kəndçilər bircə dəfə ”can” deməzlər, amma dar gündə canlarını verərlər. Hədiyyə vermək də mədəni dəyərdir, mənşəyi qorxu və riyakarlıqdır. Yaxşısı budur, bayram günü hədiyyə vermənin tarixini danışıb qanqaraçılıq salmayım.

**- Sizə görə, bir qadına veriləcək ən gözəl hədiyyə nədir?**

- Bilmirəm, heç vaxt belə bir suala cavab axtarmamışam.

**- 8 Martla bağlı ən böyük problem məktəblərdə yaşanır. ”Bütün ilboyu uşaqların zəhmətini çəkirəm, ildə bir dəfə 8 Martı bizə çox görəcəksiniz?..”deyən müəllimlər tənqid edilir, ”hamı verir, uşağım seçilməsin deyə, biz də borc-xərc tapıb alırıq” deyən valideynlər isə etiraz edir. Nazirlik guya xəbəri yoxmuş kimi ”qanunsuz hal aşkar olunsa tədbir görüləcək deyir”. Bütün bu proseslərin içərisində əzilən isə uşaqlar olur... Çıxış yolu varmı?**

- Bayaqkı kənd-şəhər məsələsində mən bunu deyirdim. Görürsünüz, mədəni bir bayram olan 8 Mart hədiyyələşməsi cəmiyyətdə necə bir mədəniyyətsiz münasibətlər sistemi yaradıb. Təkcə məktəblər deyil, bütün sahələr belə özəl günlərdə eybəcər bir şəkil alır. Bir uşağı olan valideynlərin əlinə özlərini üç uşağı olan valideynlərə göstərmək üçün 8 Mart fürsəti düşür. Beş manatlıq kişilər üç manatlıq kişiləri qadınlara aldıqları hədiyyələrin qiyməti ilə əzirlər və s. Bu, mədəniyyətin rüsvayçılığıdır. Milyonların yaşadığı şəhərlərdə həmişə belə olub, belə də olacaq. Bu məsələdə ”günah keçisi” axtarmaq haqsızlıqdır.

**Şəymən Bayramova**

# Sülhü əngəlləyən güclər artır

## Hindistan və Ermənistan arasında “silah yolu” yalnız İran üzərindən reallaşdırıla bilər



**2020-ci ildə Azərbaycan Ordusu Ermənistan üzərində qələbə qazandıqdan sonra beynəlxalq və regional mediada vaxtaşırı Ermənistanla Hindistan arasında silah ticarətinə dair xəbərlər yayılır.**

Hətta bir neçə dəfə milyon dollarlar dəyərində silah-sursatın çatdırılması qeyd edilib. Bu silahların içində Hindistan ordusunda xidmətdə olan ”Pinaka” çoxlüləli reaktiv yaylım atəşi sistemləri də vardı.

Görünür, Azərbaycanla Pakistan dost, müttəfiq olduğu üçün Hindistan da özünə borc bilir ki, düşməninin düşməni ilə dost olsun.

İndi isə iki ölkə arasında strateji hava yolunun açılması gündəmdədir.

Bu, Ermənistanın silahla təmin edilməsi, hərbi gücünün artırılması məqsədini daşıyır və dolayısı ilə Qafqazda uzun zamandan bəri arzulanan sülh üçün zərbə deməkdir. Çünki Ermənistan hərbi baxımdan nə qədər zəifdirsə, bir o qədər ”sülhpərvər” olur, arsenalında silahı çox görəndə isə tamahı və iştahı artır, özü barədə yüksək fikirlərə düşür, qəhrəmanlıq dastanları yazmaq qərarına gəlir və regionda vəziyyəti gərginləşdirir.

**Politoloq Azər Rəşidoğlu isə ”Şərq”ə açıqlamasında deyib ki, Ermənistanın silahla təmin edilməsi, hərbi gücünün artırılması məqsədini daşıyır və dolayısı ilə Qafqazda uzun zamandan bəri arzulanan sülhün əngəllənməsi anlamına gəlir:**

”Hindistan strateji əhəmiyyət daşıyan ixraca xidmət etmək üçün Ermənistana hava dəhlizi yaradır. Ən əsas məqam odur ki, Hindistan və Ermənistan arasında ”silah yolu” yalnız İran üzərindən reallaşdırıla bilər. Təbii ki, Azərbaycan heç vaxt öz hava məkanından bu məqsədlər üçün istifadə olunmasına imkan verməyəcək. İran da bu planın gerçəkləşməsinə imkan verə bilməz. Bu, ilk növbədə elə İranın özünə qarşıdır.

Məsələ ondadır ki, Ermənistan artıq Avropa İttifaqına, NATO-ya meyillənir.

Perspektivdə bu yolla Fransa lisenziyası ilə Hindistanda istehsal olunan silahların Ermənistana daşınması nəzərdə tutulur. Ermənistanda Aİ missiyasının fəaliyyət göstərdiyi, Ermənistanın Rusiya ilə hərbi əməkdaşlıqdan tədricən kənarlaşdığı, bu ölkədə Rusiya hərbi kontingentinin fəaliyyət çərçivəsinin getdikcə daraldığı və qarşıdan gələn dövrdə son qoyulmasının planlaşdırıldığı, həmçinin strateji məqsədin Ermənistanda Rusiyaya qarşı yeni cəbhə yaradılması olduğu nəzərə alınaraq, Ermənistanın tamamilə Qərbin nəzarətinə keçməsi prosesinin yürüdüldüyü aydınlaşır. İran Hindistanla Ermənistan arasında strateji hava yoluna şərait yaratmaqla bu planın gerçəkləşməsinə töhfə vermiş olur ki, bunun da nəticədə İranın özü üçün hansı problemlər yaradacağı aydındır”.

**Politoloq hesab edir ki, İranla yarım əsrlik münaqişə münasibətində olan ABŞ və Avropa lazım bildikləri vaxt Ermənistandan İrana qarşı istifadə edə bilərlər:**

”Bu silahlanmada İranın qazancı olmayacaq, əksinə, nə vaxtsa, çox da uzaq olmayan perspektivdə bunun ziyanını çəkəcək. Çünki Ermənistanın tamamilə Qərbin nəzarətinə keçməsi prosesi gedir, İran Hindistanla Ermənistan arasında strateji hava yoluna şərait yaratmaqla bu planın gerçəkləşməsinə töhfə verir və bu, Qafqazda sülhün bərqərarına zidd olmaqla yanaşı, İranın özünə də problemlər yarada bilər”.

**Şəymən Bayramova**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Azərbaycançılıq ideyasının təbliği

# Dünyaya Azərbaycan istiqlalını tanıdan insan

## "Məhəmməd Əmin Rəsulzadə şəxsiyyəti ilə azərbaycançılıq ideyası vəhdət təşkil edir"



**Son nəfəsində "Azərbaycan" deyərək dünya ilə vidalaşan şəxsiyyətin - Şərqdə bərqərar olmuş ilk demokratik respublika - Azərbaycan Xalq Cümhuriyyətinin banisi və ilk rəisi-cümhuru Məhəmməd Əmin Rəsulzadənin 140 illiyi müxtəlif tədbirlər, elmi konfranslarla qeyd edilir. Xüsusi olaraq qeyd etməliyik ki, həyata keçirilən tədbirlər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 140 illiyi ilə bağlı ötən ilin sonlarında imzaladığı Sərəncamdan irəli gələrək keçirilir.**

Prezidentin imzaladığı sərəncamda qeyd olunur ki, 2024-cü ilin yanvar ayında görkəmli ictimai-siyasi xadim, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri, Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 140 illiyi tamam olur. Məhəmməd Əmin Rəsulzadə XX əsrin ilk onilliklərində böhranlı geosiyasi şəraitdə Azərbaycanda müstəqillik idealının gerçəkləşdirilməsi və milli dövlət quruluşunun dirçəldilməsi yolunda böyük xidmətlər göstərmiş şəxsiyyətlərdəndir. Onun istiqlal məfkurəsi öz mənbəyini doğma xalqının çoxəsrlik yaddaşında kök salmış milli azadlıq düşüncəsindən alırdı. Məhəmməd Əmin Rəsulzadənin dövrün salnaməsinə çevrilən parlaq publisistik, siyasi, ədəbi-tənqidi və elmi irsi Azərbaycanın ictimai fikir tarixində xüsusi yer tutur. Uzun illər ərzində mühacirətdə də o, müstəqil Azərbaycan arzusu ilə yaşayıb və mübarizə aparıb. "Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, görkəmli ictimai-siyasi xadim Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 140-cı ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

Qeyd etdiyimiz kimi, məhz bu sərəncamdan irəli gələrək ölkəmizdə geniş tədbirlər keçirilib.

Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinə həsr olunmuş "II Beynəlxalq Rəsulzadə qiraətləri" bu tədbirlər arasında xüsusi seçilirdi. Tədbirlər 4 gün intensiv davam etdi. M.Ə.Rəsulzadənin adına təşkil edilmiş beynəlxalq konfransda iştirak edən qonaqlar arasında Polşa nümayəndə heyəti, Varşava Universitetinin professoru, Şərqi Avropa Araşdırmaları Mərkəzinin direktoru Yan Maliski, Necdet Ünüvar (Ankara Universitetinin rektoru) və başqa mötəbər şəxslər olub. Varşava Universiteti dosenti Danuta İvona Çmielovska böyük tarixçi-alim, Azərbaycanın dostu Tadeuş Svetoçovskinin Məhəmməd Əmin Rəsulzadə haqqında fikirlərini səsləndiriblər. Tədbirin ikinci günü M.Ə.Rəsulzadənin Novxanı kəndindəki heykəlini ziyarət olunub, abidə önünə gül çələngləri qoyulub və xarici qonaqların iştirakı ilə ürək dolusu çıxışlar səslənib. Həmin axşam "Holiday Inn" hotelində konfransın Təntənəli Açılış Mərasimi oldu və bu mərasimdə Məhəmməd Əmin Rəsulzadənin 140 illik yubileyinə həsr olunmuş "II Beynəlxalq Rəsulzadə qiraətləri" kitabı təqdim olundu. Təşkilatçılar və müəlliflər birbirindən maraqlı və təkrarolunmaz çıxışlar etdilər. Azərbaycan Respublikasının Dövlət himni ilə başlayan bu mərasimdə, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinin qeyd edilməsi haqqında Sərəncamını Milli Azərbaycan Tarixi Muzeyinin elmi işlər üzrə direktor müavini, t.e.d., prof. Fərhad Cabbarov səsləndirib. Azərbaycanın Xalq artisti Alim Qasımovdan möhtəşəm musiqi salamı konfrans iştirakçılarının ruhunu oxşayıb. Vahid Mustafayev (VMF Holdinqin təsisçisi) və "Rəsulzadə Ev-Muzeyi" İctimai Qrupunun videotəqdimatı olub. M.Ə. Rəsulzadənin məharətlə hazırlanmış virtual ev muzeyi "ziyarət edilib". AMEA prezidenti İsa Həbibbəyli, Mədəniyyət Nazirliyinin nümayəndəsi, Elm və Təhsil Nazirliyi nümayəndəsi və Polşa Respublikasının səfiri Rafal Poborski çıxış ediblər. Xarici iştirakçılar adından Yeva-Maria-Aux (Almaniya), Səbahəddin Şimşir (Türkiyə), Georgi Mamulia (Fransa), Tohid Məlikzadə (İran), Səadət Kərimi (İsveç) və Səlcuk Önal (Türkiyə), Azərbaycan ziyalıları və iştirakçıları adından dosent Zümrüd Axundova-Dadaşzadə, Rəsulzadə ailəsi adından Rais Rəsulzadə çıxış ediblər. 3-cü gün isə Milli Azərbaycan Tarixi Muzeyinin konfrans zalında konfransın Elmi proqramı baş tutub. Birinci paneldə Məhəmməd Əmin Rəsulzadənin fəaliyyətinə Tarix, Fəlsəfə, Hüquq perspektivlərindən həsr olunmuş tədqiqatlar dosent Firdovsiyyə Əhmədovanın moderatorluğunda təqdim olunub. "Xaricdə Azərbaycan simvolu - Rəsulzadə. Məhəmməd Əmin Rəsulzadə Qərb tarixçilərinin dəyərləndirilməsində" adlı yeni araşdırma ilə Səadət Kərimi çıxış edib. 4-cü gün elmi konfrans Milli Azərbaycan Tarixi Muzeyinin Konfrans zalında öz işini davam etdirib. "Şərq zalı"nda M.Ə.Rəsulzadənin 1949-cu il 1 fevral tarixində Ankarada yaratdığı Azərbaycan Kültür Dərnəyinin 75 illiyinə həsr olunmuş maraqlı tədbir baş tutub.

M.Ə.Rəsulzadənin 140 illiyi təkcə paytaxtda deyil, regionlarda da qeyd edilir. Gəncə-Daşkəsən Mədəniyyət İdarəsi Gəncə şəhər Mərkəzləşdirilmiş Kitabxanalar Sisteminin 24 saylı kitabxana filialı Türkdilli dövlətlərin siyasətinə dəstək fondu ilə birgə Azərbaycan Xalq Cümhuriyyətinin qurucu liderlərindən biri olan Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 140 illiyi münasibətilə "Cümhuriyyətin əbədiyaşar lideri M.Ə.Rəsulzadə" mövzusunda beynəlxalq elmi-nəzəri konfrans keçirib. Onlayn formatda keçirilən konfransa Azərbaycan ziyalıları ilə yanaşı Qazaxıstandan parlamentin sabiq deputatı, tanınmış ictimai xadim Əbülfəz Xamedov, Moskvadan hüquq elmləri namizədi Oktay Hüseynov və digərləri qatılıblar. Çıxış edənlər M.Ə.Rəsulzadənin keşməkeşli həyatından və müqəddəs amalı uğrunda ömrünün sonuna qədər mübarizə aparmasından danışıblar. Azərbaycandan kənarda da silsilə tədbirlər keçirilib. Qardaş Türkiyənin Ankara, İstanbul, Əskişəhərində görkəmli mütəfəkkir, Azərbaycanın ictimai-siyasi fikir tarixində mühüm yer tutan M.Ə.Rəsulzadənin 140 illiyi qeyd edilib. Tədbirlərdə M.Ə.Rəsulzadənin yadigarı Azərbaycan Kültür Dərnəyinin üzvləri, elm adamları, ziyalılar iştirak edib. İstanbul, daha sonra Ankara Universitetində "Məhəmməd Əmin Rəsulzadə və Türk dünyası" mövzusunda Türkiyənin və Azərbaycanın rəsmi və elmi qurumlarının təmsilçiləri, millət vəkilləri, alimlər, ictimai təşkilatlar və media nümayəndələri və təbii ki, tələbələrin iştirakı ilə ard-arda iki möhtəşəm elmi konfrans keçirilib.

Əlbəttə ki, keçirilən tədbirlərlə yanaşı, Məhəmməd Əmin Rəsulzadənin Ankaranın Cəbəci Əsri məzarlığındakı müqəddəs məzarının abadlaşdırılmasını da qeyd etməliyik. Azərbaycan Respublikasının Türkiyə Cümhuriyyətindəki səfirliyi dövlət başçısının Sərəncamını əsas tutaraq görkəmli ictimai-siyasi xadimin Ankara şəhərindəki Cəbəci Əsri məzarlığında yerləşən məzarının abadlaşdırılmasına başlayıb və bu günlərdə işlər başa çatdırılıb. Qeyd olunur ki, məzarın abadlaşdırılması Türkiyənin müvafiq dövlət qurumları ilə koordinasiyalı şəkildə həyata keçirilib və M.Ə.Rəsulzadənin vəfat ildönümü olan 6 mart tarixinə qədər yekunlaşdırılıb.

**Cümhuriyyət dövrünün tədqiqatçısı, "Çapar" dərgisinin baş redaktoru Dilqəm Əhməd "Şərq"ə açıqlamasında Məhəmməd Əmin Rəsulzadənin hər bir azərbaycanlı üçün ortaq dəyər olduğunu vurğuladı:**

- Azərbaycanın Türkiyədəki səfirliyinin Məhəmməd Əmin Rəsulzadənin Əsri məzarlığındakı məzarını abadlaşdırması, əlbəttə, təqdirəlayiqdir. Çünki Məhəmməd Əmin Rəzulzadə hər bir azərbaycanlı üçün, istər Azərbaycan vətəndaşı olsun, istərsə də xarici ölkələrdə yaşayıb yaradan əsli azərbaycanlı olanlar, hamımızın ortaq dəyəridir. M.Ə.Rəzulzadə ömrünü, gələcəyini və öz istiqbalını Azərbaycan istqbalına qutban vermiş, Azərbaycan istiqlalına fəda etmiş, ömrünün sonunadək də Azərbaycan sevdası ilə yanaraq istiqlalımızı, haqq davamızı dünyaya yayan bir şəxsiyyətdir. M.Ə.Rəsulzadənin 140 illik yubiley tədbirlərinə müxtəlif ölkələrdən təşrif gətirmiş qonaqlara baxdıqda bu dahi şəxsiyyətin bütün dünyanı əhatə etdiyi görünür. M.Ə.Rəsulzadə Azərbaycan sərhədlərini təkcə fiziki olaraq aşmayıb, ideyalarını, məfkurəsini, elmi-fəlsəfi düşüncələrini dünyaya yayıb. Türkiyə, Polşa, Almaniya, Fransa, Azərbaycanımızın güneyi... belə bir geniş arealda M.Ə.Rəsulzadə tanınıb və ona Azərbaycan istiqlalının yorulmaz tərənnümçüsü kimi hər zaman saygı, sevgi bəslənib. Bu gün də biz həmin sevgini görürük və bundan sonra da belə olacaq.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Fransanı bölgəyə gətirmək cəhdi Ermənistana baha başa gələcək

## Kalaşnikovun mövqeyi Rusiyanın Ermənistanla bağlı narazılığının hansı səviyyədə olduğunu göstərir

**Rusiya Dövlət Dumasının MDB işləri üzrə komitəsinin rəhbəri Leonid Kalaşnikov Ermənistan Rusiyanın orbitindən çıxacağı halda meydanda tək qalacağı ilə bağlı təhdid edib. Artıq Ermənistanın Rusiya üçün önəmsiz fiqur olduğunu vurğulayan Kalaşnikov**

"Rossiya" telekanalında yayımlanan "Vladimir Solovyovla axşam" siyasi tok-şousundakı çıxışında deyib ki, Ermənistan bizə Sovet dövründə NATO, Türkiyə ilə bağlı vacib idi. Siz indi Rusiyadan nə istəyirsiz?

"İndi isə deyirsiz ki, ruslar, rədd olun! Yaxşı, biz getdik, nə edəcəksiniz? İran, Türkiyə, Azərbaycan və Gürcüstanın əhatəsindəsiniz. Hansı Fransadan danışırsız? Onlar ki, ora uçub gələ bilməzlər". Yeri gəlmişkən, oxşar sözləri bir müddət əvvəl erməni hərbi ekspert Hayk Nahapetyan deyib. H.Nahapetyan qeyd etmişdi ki, rəsmi İrəvan 102-ci hərbi bazanı çıxarmaq qərarı versə, bu, Ermənistan üçün fəlakətli ola bilər: "Nə fransız, nə də ingilis gəmiləri heç vaxt dağlara çıxmayıb. İndi 102-ci rus hərbi bazası çıxsa və türk qoşunları 1920-ci il dekabrın 2-də imzalanmış Gümrü müqaviləsi çərçivəsində Ermənistanın 10 000 kvadratkilometr ərazisində yerləşsə, necə olacaq? Fransız gəmiləri dağlara çıxmayacaq, ABŞ də elə".

Yerli ekspertlər də hesab edir ki, regiondan min kilometrlərlə uzaqda olan Fransa Ermənistanı qoruya bilməyəcək.

**Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri, politoloq Tural İsmayılov "Şərq"ə açıqlamasında deyib ki, Leonid Kalaşnikovun bu mövqeyi Rusiyanın dövlət rəhbərliyində Ermənistanla bağlı narazılığın hansı səviyyədə olduğunu göstərir:**

"Bu ilk deyil ki?! Demək olar ki, hər gün Rusiyanın ən yüksəksəviyyəli rəsmilərinin Ermənistanla bağlı narazılıq mesajlarını eşidib, görürük. Ermənistanın hazırkı siyasi hakimiyyətindən narazılıq fraqmental və yaxud ayrı-ayrı şəxslər səviyyəsində deyil, bir növ ümumdövlət aktına çevrilməyə başlayıb".

**Kalaşnikovun açıqlamasına gəldikdə isə T.İsmayılov qeyd edib ki, onun dediklərində haqlılıq payı var:**

"Fransa öz mənafeyi naminə bütün dəyərlərin üstündən xətt çəkib. İndi də Ermənistanı silahlandırıb, bölgədəki qüvvələr əleyhinə qızışdırsa da, Ermənistan real bir təhlükə ilə üz-üzə qaldığı zaman onu müdafiə edəcək vəziyyətdə deyil. Fransanın Avropanın Mülki Müdafiə Missiyasını adı altında Ermənistan ərazilərində Rusiya və İran əleyhinə plasdarm qurması da bölgə güclərinin ciddi narazılığına səbəb olmaqdadır. Fransanı bölgəyə gətirmək cəhdi Ermənistana baha başa gələcək. Paşinyan iqtidarı Fransadan gələ biləcək dəstəyə çox ümid edir. Amma İran və Rusiyanın təzyiqləri qarşısında nə ABŞ, nə Fransa, nə də Aİ missiyası Ermənistana kömək edə biləcək. Əslində, Cənubi Qafqaza nəzarət etmək, bölgədəki prosesləri özünə sərf edən formada gərginləşdirən qərb neoimperializmi Fransanın başçılığı altında Ermənistan həyata keçirdiyi layihəsini reallaşdıra bilməyəcək. Fransa hər nə qədər Ermənistana külli miqdarda maliyyə yardımı edib, yararsız "konserv qutuları"nı silah adı ilə Paşinyan hakimiyyətinin gözünü boyasa da, Ermənistanın Rusiya asılılığına son qoya bilməyəcək. Ölkənin dövlət büdcəsi böyük formada Rusiyadan gələn daxilolmalardan asılı vəziyyətdədir".

**Şəymən Bayramova**

# Gürcüstan müsəlmanları İran təbliğat maşınının qurbanlarıdır

## "Azərbaycanlılarla gürcüləri, müsəlmanlarla xristianları üz-üzə qoymaq istəyənlər, şübhəsiz ki, Fransanın agentləri və erməni təxribatçılarıdır"

**Gürcüstanın Samtsxe-Cavaxetiya bölgəsindəki Adigeni kəndində xristian dini icmasının bəzi nümayəndələri müsəlmanlara qarşı zorakılıq tətbiq ediblər, müsəlmanların namaz qılmasına mane olublar. Bu isə ölkənin rəsmi qurumlarının hərəkətə gətirib. Hadisə ilə bağlı ilk olaraq Gürcüstan Müsəlmanları İdarəsi bəyanat yayıb.**



Bəyanatda deyilib ki, dini etiqad azadlığı Gürcüstan Konstitusiyası ilə qorunur. Buna uyğun olaraq, hər bir vətəndaş Konstitusiyaya və bir-birinin, müxtəlif millətlərin və dinlərin nümayəndələrinin dəyərlərinə hörmətlə yanaşmalıdırlar.

**Milli Cəbhə Partiyasının sədr müavini, ilahiyyatçı Tural İrfan "Şərq"ə açıqlamasında deyib ki, Gürcüstanda ara-sıra belə məsələlər olsa da, bu məsələ indiki zamanda məqsədyönlü şəkildə, süni olaraq həyata keçirilir. Ekspertin sözlərinə görə, şübhəsiz ki, əgər Gürcüstan qonşuluq münasibətlərinə sadiq qalmaq istəyirsə, gərək dini tolerantlıq ənənələrini də qorusun:**

"Məlumdur ki, Fransa əsasən Azərbaycanın Qarabağ zəfərindən və torpaqlarımızın işğaldan azad edilməsindən sonra Azərbaycan və Türkiyəyə qarşı xüsusi düşməncilik siyasəti yürüdür. Bu da onu həttə İranla belə ortaq mövqelərdən çıxışlar etməyə, Ermənistana silah verməyə qədər gətirib çıxarıb. İnanıram ki, Gürcüstandakı bu süni qarşıdurma Avropadan qaynaqlanır. Başda Fransa olmaqla islamofobiyanın artırılması, bəhanələr ilə müsəlmanlara təzyiq göstərmək, əslində, gizli səlib yürüşünün detallarıdır. Gürcüstanda azərbaycanlılarla gürcüləri, müsəlmanlarla xristianları üz-üzə qoymaq istəyənlər, şübhəsiz ki, Fransanın agentləri və erməni təxribatçılarıdır".

**İlahiyyatçı bəyan edib ki, Gürcüstan müsəlmanlarının deMək olar ki, hamısı İran təbliğat maşınının qurbanlarıdır:**

"İranın yaydığı ideoloji xətt nəinki müsəlmanlara, hətta başqa dinlərin mənsublarının inancına da tamamilə zidd və düşmənçilik aşılayır. Radikal və nifaq, ikitirəlik niyyəti ilə İranın uzun müddət oradakı təbliğatı səbəb olub ki, Gürcüstanda müsəlmanlar İran, fars ideologiyasının qurbanlarına çevrilirlər. Din pərdəsi altında, əslində, İran Gürcüstan müsəlmanlarını Azərbaycandan ayırıb özünə daha çox bağlamaq istəyir. O müsəlmanlar İranda oturan siyasiləri tanrı kimi qəbul edirlər, onlara pərəstiş edirlər, xüms, zəkat, vergi verirlər... Bu da münasibətlərin gərginləşməsinə marağın tərkib hissəsidir. Fransa ilə İran eyni hədəfə vurur. Eyni məqsədə doğru müxtəlif yollarla irəliləyirlər.

Məqsəd Gürcüstanda müsəlmanlar ilə xristianları qarşı-qarşıya gətirib islama qarşı savaş açmaq, Türk dünyasının başını qatmaqdır. Azərbaycanın qonşularla münasibətlərinə xələl gətirmək istəyən bu qüvvələr inanıram ki, bir nailiyyət əldə etməyəcəklər. İran da, Fransa da Gürcüstanda uduzacaq. İslama savaş açmaq, Türk Dövlətləri Təşkilatının vəhdətinə qarşı təxribat, islamofobiya addımları gücsüz, haqsız və əsassız olduğu üçün iflasa məhkumdur".

**İsmayıl Qocayev**

# “Kamil Zeynallı şagirdlərə nümunə olacaq şəxsdir”

## Kamran Əsədov: “Onun məktəblilərlə görüşündə heç bir problem yoxdur”




*"Biz orta məktəblərdə təkcə tanınmış şəxsləri, alimləri, şair və yazıçıları deyil, cəmiyyətin digər üzvlərini də tanıtmalıyıq"*

**Paytaxtdakı 45 saylı orta ümumtəhsil məktəbində Kamil Zeynallı ilə görüş təşkil edilib. Kimdir Kamil Zeynallı? Müxtəlif şəraitlərdə, cinayət tərkibli müxtəlif əməllərə görə polis tərəfindən dəfələrlə saxlanılan bir şəxs. Doğrudur, K.Zeynallı xeyriyyəçi kimi də tanınır.**

COVID-19 pandemiyası zamanı onun aztəminatlı ailələrə sosial yardımlar etməsi məlum idi. Xeyirxah insandır. Danmaq mümkün deyil. Başqa nə? Bu insanın başqa hansı xidməti, xüsusi olaraq onu fərqləndirən hansı cəhəti var? Kamil Zeynallı ilk başdan müğənni Gülayın həyat yoldaşı kimi tanınıb. (Ölkəmizdə müğənnilər hamıdan məşhurdur axı!..) Çünki tv-proqramlara birgə qatıldıqları vaxtlar olurdu. Kim kimi məşhurlaşdırdı, Kamilmi Gülayı, Gülaymı Kamili, bu da çətin sualdır. Bu da faktdır ki, Kamilin adı çəkiləndə, ”Gülay Zeynallının həyat yoldaşı” təyini səslənirdi. İndi də, baxmayaraq ki, ailə münasibətləri sonradan pozuldu, Kamil Zeynallı yenə də daha çox Gülay Zeynallının həyat yoldaşı kimi məşhurdur, sabiq olsa da. Bununla K.Zeynallı şəxsiyyətini aşağılamaq fikrində deyilik. Qətiyyən. Sadəcə, bu insanın cəmiyyətdə necə tanındığını izah etməyə çalışırıq. Və başqa bir tanıtım, təqdimat tapa bilmirik. ”İdmançıdır”, desək, o qədər idmançılar var ki! Əgər ölkəmizi hansısa mötəbər idman yarışlarında təmsil edib, mükafatlar qazanan titullu idmançı olsaydı, əlbəttə, təqdimat başqa cür edilərdi. Belə deyil. K.Zeynallının trenajor zalı - idman-sağlamlıq mərkəzi (”Limak) vardı, işlədirdi, sahibkar kimi. İndi bu mərkəz fəaliyyətdədir, deyil, onu da bilmirik. Eyni adda ”çatdırılma” məntəqəsi də var. Onundur, onun deyil, bunu bilmirik. Qısası, bu insan dalaşqan davranışları ilə sosial şəbəkələrdə populyarlaşıb. Sonuncu dəfə də Rusiyada həbs edildi (ermənilərin təxribatı ilə), Azərbaycanın Rusiyadakı səfirliyinin müdaxiləsindən sonra sərbəst buraxıldı. Belə adamlar haqqında ”qəbrə salamat baş aparana oxşamır”, məsəli işlənir.

Yaxşı, belə bir mübahisəli şəxsiyyəti olan adamın niyə məktəbdə şagirdlərlə görüşü təşkil edilməlidir?

**Təhsil eksperti Kamran Əsədov ”Şərq”ə açıqlamasında, hər nə qədər bizə təəccüblü görünsə də, həmin görüşü müsbət qarşıladığını qeyd etdi:**

- ”Təhsil haqqında” qanunun tələbinə görə, hər bir şagird şəxsiyyət olaraq yetişib cəmiyyətə atılmalıdır. Birmənalı şəkildə biz orta məktəblərdə təkcə tanınmış şəxsləri, alimləri, şair və yazıçıları deyil, cəmiyyətin digər üzvlərini də tanıtmalıyıq. Hər bir şəxs cəmiyyətin üzvüdür. İstər Kamil Zeynallı, istərsə də müasir dövrün digər populyar şəxslərinin məktəblilərlə görüşünün keçirilməsində heç bir problem yoxdur. ”Orta ümumtəhsil məktəblərinin nümunəvi Əsasnaməsi”ndə müsbət xarakterizə olunan şəxslərin məktəbə dəvət edilməsi də əksini tapıb. Belə şəxslərlə təşkil edilən görüşlər şagirdlərə müsbət təsir göstərir. Biz şagirdlərə cəmiyyətin hər bir üzvünü təqdim etməliyik ki, onlar hansı yolla gedəcəklərinə özləri qərar versinlər. Bütün şagirdlər ali məktəbə daxil olmur, bütün şagirdlər elm ardınca getmir. Başqa peşələri, sənətləri seçənlər var. Kamil Zeynallı fəaliyyəti ilə bağlı cəmiyyət tərəfindən müsbət qəbul olunan insandır. İdmanla məşğul olur, bununla da şagirdlərə nümunə olacaq şəxsdir. Biz bu cür müsbət xarakterizə olunan insanları şagirdlərə tanıtmalıyıq. Bu cür insanları uşaqlar, məktəblilər onsuz da sosial şəbəkələrdə görür, izləyirlər. K.Zeynallını yaxından tanıtmaqla biz şagrdlərə motivasiya verə bilərik. Çünki bir çox hallarda çətin situasiyalarda şagirdlərin özlərini itirdiyini görürük. Müasir dövrün trendi budur. Biz müasir dövrün çağırışlarını nəzərə almalıyıq.

**Məlahət Rzayeva**

**P.S.**

**Belədirsə, ”Son zəng” tədbirlərində, məzun günlərində meyxana oxuyan, ”vorovskoy” mahnılar dinləyib rəqs edənləri də gərək qınamayaq, ”özləri yollarını seçsinlər”, deyib keçək.**

# "Qarabağ"ın elçiləri artır

## Kim getsə də, Qurban Qurbanov komandanı tərk etməyəcək

**”Qarabağ”ın Avropa Liqasında inamlı çıxışı kluba olan diqqəti birə-beş artırıb. Portuqaliya ”Braqa”sını sıradan çıxarmasından sonra, 34 oyundur məğlubiyyət üzü görməyən ”Bayer”i ilk hissədə 2:0 hesabı ilə məğlub etməsi, Almaniya təmsilçisinin məğlubiyyətdən son anda qurtulması Qurban Qurbanovun komandasını bir daha ön plana çıxarıb.**

Bu mənada bır sıra nəşrlər ”Qarabağ”ın möcüzəvi çıxışına yer ayırıb, o cümlədən ölkə xaricindən Ağdam klubu ilə bağlı sosial şəbəkələrdə kifayət qədər paylaşımlar edilib. Bu paylaşımlarda Qurban Qurbanovun əməyi də yüksək qiymətləndirilib. Sosial şəbəkələrin Türkiyə seqmentində Qurbanovun İstanbul nəhənglərini çalışdırmaq potensialına sahib olduğu da vurğulanıb. Azarkeşlər təcrübəli mütəxəssisi ”Qalatasaray”, ”Fənərbaxça”ya istəyiblər. Bundan başqa, son çempionun hücumçusu Juninyo da diqqətdən kənar qalmayıb. Onun tezliklə yaxşı qiymətə transfer ediləcəyi ehtimal edilib.



**Məsələyə münasibət bildirən İctimai Televiziyanın İdman departamentinin rəhbəri Kənan Hakimov ”Şərq”ə söyləyib ki, yayda ”Qarabağ” üçün bu heyəti qoruyub saxlamaq çətin olacaq:**

”Braqa” ilə Bakıdakı dramatik oyun və məğlubedilməz ”Bayer”lə 2:2 hesablı nəticə ”Qarabağ”a Avropada marağı kifayət qədər artırıb. Bu baxımdan bu gün ”Qarabağ”ın futbolçularının, xüsusilə də Juninyonun adının bir sıra klublarla yanaşı çəkilməsi normaldır. Amma digər tərəfdən klub transferlərdən milyonlarla avro qazana bilər. Qurban Qurbanova gəlincə, ona öncədən də ölkə xaricindən təkliflər gəlib. Amma özü dəfələrlə qeyd edib ki, onun üçün ”Qarabağ” adının mənəvi yükü, məsuliyyəti əhəmiyyətlidir. Nə vaxtsa Qurbanovun ölkə xaricində işləməsini izləmək maraqlı olar. Bu həm də, təcrübəli mütəxəssis qarşısında yeni bir çağırış hesab olunur”.

**K.Hakimov vurğulayıb ki, indiki məqamda Qurbanovun ”Qarabağ”dakı işini davam etdirməyi üstün tutacağını düşünür:**

”Çünki bu komandanın inkişafı son illər daha da sürətlənib. Fikrimcə, Qurban Qurbanov qarşıdakı 2-3 il ərzində ”Qarabağ”ı bundan da böyük hədəflərə çatdıra bilər. Azarkeşlərin simpatiyası olsa da, bildiyim qədəri ilə ”Qalatasaray”, ”Fənərbağça”dan ”Qarabağ”a hər hansı rəsmi təklif olmayıb. Bu baxımdan fikir yürütmək düzgün olmazdı”.

**Nəzrin Vüqarqızı**

# Özəl məktəblərin əksəriyyətində mövcuddur

## Məktəb avtobusları təhlükəsizliyin qorunması baxımından önəmlidir




**”Şəhər sakinlər üçün olmalıdır”.**

Bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində keçirilən ictimai dinləmədə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi İdarə Heyətinin sədri Anar Rzayev deyib.

Anar Rzayev qeyd edib ki, il ərzində Bakı şəhərində təxminən iki milyard səfər həyata keçirilir: ”Bunların yalnız 28 faizi ictimai nəqliyyatın, 52 faizi isə fərdi avtomobillərin və taksilərin payına düşür. Burada da fərdi nəqliyyat vasitələrinin sayı yarıdan azdır. 2025-ci ilədək ictimai nəqliyyatla daşınmanı 300 milyon səfərə çatdırmalıyıq”.

O, diqqətə çatdırıb ki, məktəb avtobuslarının tətbiqi çox müzakirə olunurdu, amma hazırda bunun tətbiqi çox çətindir.

**Məsələ ilə bağlı ”Şərq”ə danışan nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərov qeyd edib ki, Bakı Nəqliyyat Agentliyi ilə Təhsil Nazirliyi arasında bir neçə il bundan öncə məktəb avtobusları ilə bağlı müzakirələr aparılıb:** ”Həmin vaxt da bildirildi ki, danışıqlar gedir. Lakin mövzu gündəmdən düşdü və heç bir addım atılmadı. Bu avtobusların təşkili hər məktəbin şagirdlərə verdiyi dəyərdən irəli gəlir. Həmçinin bu, təhlükəsizliyin qorunması baxımından önəmlidir. Özəl məktəblərin əksəriyyətində avtobuslar mövcuddur. Yəni sözügedən praktika çoxdan var. Xarici ölkələrdə isə özəl və dövlət, fərqi yoxdur, bütün məktəblərdə şagirdlər avtobuslarla təmin olunub”.

**Nəzrin**




# Karantin rejimi 1 iyula qədər uzadıldı

## Bu, ölkə iqtisadiyyatına və turizmə böyük ziyan vurur

**Koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2024-cü il 1 iyul saat 06:00-dək uzadılıb.**

Bu barədə Baş nazir Əli Əsədov Qərar imzalayıb. Xatırladaq ki, daha əvvəl xüsusi karantin rejiminin müddəti 2 aprelədək nəzərdə tutulmuşdu.

**Məsələ ilə bağlı danışan iqtisadçı-ekspert Natiq Cəfərli ”Şərq”ə açıqlamasında bildirib ki, quru sərhədləri açılmalıdır:**

”Hazırda dünyanın heç bir yerində karantin rejimi yoxdur. Hətta Ümumdünya Səhiyyə Təşkilatı bununla bağlı bütün protokolları və tövsiyələri ləğv edib. Azərbaycanın karantin rejiminə əsaslanaraq quru sərhədlərini bağlı saxlaması ölkəmiz adına yaxşı bir addım deyil. Bu, ölkə iqtisadiyyatına və turizmə böyük ziyan vurur. Azərbaycan iqtisadiyyatı keçən il MDB-də ən aşağı göstəricilər sırasında qərarlaşıb. Ümumdaxili məhsul isə 1 faiz civarında artıb. Bunun əsas səbəblərindən biri də quru sərhədlərin bağlı qalmasıdır. Əlavə olaraq 2023-cü ilə nisbətdə 2019-cu ildə ölkəyə 2 dəfədən çox turist gəlib və onların xərclədikləri pul dəfələrlə çox idi. Bu da onu deməyə əsas verir ki, karantin rejiminin uzadılması iqtisadiyyata külli miqdarda zərər verir”.

**Nəzrin Vüqarqızı**

# Çıxarışı olan və ucuz qiymətə torpaq sahələri satılır

## Alıcılar qanunla yalnız çıxarışı olan torpaq sahəsi üzərində tikintiyə icazə verildiyini bilməlidirlər



**Vətəndaşların daşınmaz əmlak üzrə ən çox üz tutduğu seqmentlərdən biri də torpaq bazarıdır. Torpaq bazarında alqı-satqı əməliyyatları zamanı kifayət qədər problemlər yaşanır.**

Həmçinin son illər paytaxtın ətraf kənd və qəsəbələrində məskunlaşmanın sürətlə artması yaşayış təyinatlı boş torpaq sahələrini kəskin azaldıb. Bu zaman torpaq sahəsi alaraq ev tikmək istəyən vətəndaşları belə bir sual düşündürür. Görəsən, Bakının hansı ərazilərindən aşağı qiymətə torpaq sahəsi almaq mümkündür?

**Məsələ ilə bağlı ”Şərq”ə danışan əmlak məsələləri üzrə ekspert Elnur Azadov bildirib ki, alıcılar qanunla yalnız çıxarışı olan torpaq sahəsi üzərində tikintiyə icazə verildiyini bilməlidirlər:**

”Fərdi ev inşa edərkən torpağın təyinatı və çıxarışı təklif olunan qaydada yaşayış məntəqəsinə uyğun olmalıdır. Bu zaman həmin torpağa normativ üzrə layihə çəkilməlidir ki, ölçülərə uyğun təyin edilsin. Hazırda Bakı şəhərinin ətrafında yüksək perspektivə malik, daha sərfəli torpaq sahələri aktiv inkişaf edən ərazilərdə və irihəcmli məkanlarda yerləşir. Bura xüsusi olaraq Nardaran və Pirşağı qəsəbələri arasında yerləşən Ləhiş bağlarını misal çəkmək olar. Zabrat, Zığ dairəsi, Türkan, Buzovna, Maştağa, Mehdiabadda da kifayət qədər çıxarışı olan və ucuz qiymətə torpaq sahələri satılır”.

**Nəzrin**


## Elanlar

**(“Əmlak Hərrac Mərkəzi” MMC)**

**LOT1534:** Bakı şəhəri, Binəqədi rayonu, 9-cu mkr, Adil Məmmədov küçəsi, ev 11, giriş 9 ünvanında yerləşən, 44.64 kv.m ümumi sahədən ibarət olan 91 saylı mənzil açıq hərracda satılmalıdır. İlkin hərrac açıq auksion qaydasında keçirilməklə 02 aprel 2024-cü il tarixi, saat 1000-a (növbəlik qaydasında) təyin edilmişdir. Əmlakın ilkin satış qiyməti 107.000(bir yüz yeddi min) manat məbləğindəmüəyyənləşdirilmişdir. Hərracda iştirak üçün ilkin satış qiymətinin 5%-i, yəni 5.350 (beş min üç yüz əlli) manat məbləğində beh ödənilməlidir.

**LOT1531:** Abşeron rayonu, Görədil kəndi, N.Dadaşov küçəsi ünvanında yerləşən 12 saylı fərdi yaşayış evi (yeni qaydalarla N.Dadaşov küç., ev 20) açıq hərracda satılmalıdır. İlkin hərrac açıq auksion qaydasında keçirilməklə 15 aprel 2024-cü il tarixi, saat 1000-a (növbəlik qaydasında) təyin edilmişdir. Əmlakın ilkin satış qiyməti 26.000 (iyirmi altı min) manat məbləğindəmüəyyənləşdirilmişdir. Hərracda iştirak üçün ilkin satış qiymətinin 5%-i, yəni 1.300 (bir min üç yüz) manat məbləğində beh ödənilməlidir.

**LOT1532:** Abşeron rayonu, Saray qəsəbəsi, M.Ziyadov küçəsi, ev 9 ünvanında yerləşən, ümumi sahəsi 107 kv.m olan fərdi yaşayış evi açıq hərracda satılmalıdır. İlkin hərrac açıq auksion qaydasında keçirilməklə 15 aprel 2024-cü il tarixi, saat 1000-a (növbəlik qaydasında) təyin edilmişdir. Əmlakın ilkin satış qiyməti 150.000 (bir yüz əlli min) manat məbləğindəmüəyyənləşdirilmişdir. Hərracda iştirak üçün ilkin satış qiymətinin 5%-i, yəni 7.500 (yeddi min beş yüz) manat məbləğində beh ödənilməlidir.

**LOT1533:** Şəmkir rayonu, Qapanlı kəndi, Zaur Səmədov küçəsində ünvanında, 0.16 ha torpaq sahəsində yerləşən 101 saylı fərdi yaşayış evi açıq hərracda satılmalıdır. İlkin hərrac açıq auksion qaydasında keçirilməklə 02 aprel 2024-cü il tarixi, saat 1000-a (növbəlik qaydasında) təyin edilmişdir. Əmlakın ilkin satış qiyməti 95.000(doxsan beş min) manat məbləğindəmüəyyənləşdirilmişdir. Hərracda iştirak üçün ilkin satış qiymətinin 5%-i, yəni 4.750 (dörd min yeddi yüz əlli) manat məbləğində beh ödənilməlidir.

**LOT1488 məlumat:** Abşeron rayonu, Masazır kəndi, Əliağa Vahid küçəsi ünvanında, 0.0265 ha torpaq sahəsində yerləşən, ümumi sahəsi 146.6 kv.metr olan 734A saylı fərdi yaşayış evinə dair 07 mart 2024-cü il, saat 10:00 (növbəlik qaydasında) təyin edilmiş təkrar açıq hərracın iştirakçısı olmadığından hərrac baş tutmamış və bununla əlaqədar olaraq 07.03.2024-cü il tarixli hərracın baş tutmaması barədə protokol tərtib edilmişdir.

**VÖEN - 9900003611**
**Kodu: 200037**
**M/H:AZ37NABZ01350100000000001944**
**SWIFT : AIIBAZ2XXX**
**Hərracın təşkilatçısı**
**”Əmlak Hərrac Mərkəzi” MMC**
**Ünvan: Bakı şəhəri, Nəsimi rayonu, Fikrət Əmirov küçəsi, 11/1**
**Əlavə məlumat üçün www.birjanews.azTel: (+99450) 210-66-47; (+99451) 232-36-98**
**e-mail: info@e-herrac.com**
**rəsmi internet saytı: e-herrac.com**

## Elan

Azərbaycan Universitetinin 3-cü kurs tələbəsi Əliyeva Türkan Fəzail qızına məxsus tələbə bileti itdiyi üçün etibarsız sayılır.



**Təsisçi: “Şərq Media Qrup” MMC**
**Baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**

**Reportyorlar qrupu:**

Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Nihat Kərimli, Şəhanə Ziyad

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap olunur

“Şərq Media Qrup” MMC-yə daxildir:
“Şərq” qəzeti və sherg.az saytı
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

**Hesab nömrəsi:**

Kapital Bank ASC Yasamal filialı
Kod: 200037
VÖEN: 9900003611
M/H: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.: AIIBAZ2XXXX
AZM hesab nömrəsi:
AZ74AIIB400500G9441595487103
VÖEN 1307632991

Tirajı: 1500 Sifariş: 625



## Kiloqramı 25-30 manata satılan hind qozu ölüm saçır

Çərəzin üzərinə bromid qazı püskürdülür

**Novruz bayramında qoz, fındıq, badam, fıstıqla yanaşı hind qozu adıyla tanınan kaju da çox satılır. Maraqlıdır ki, hind qozu - kaju Azərbaycan insanına o qədər də tanış çərəz deyil. Bununla belə son illərdə bu çərəzə də meylin artdığı görünür.**

Təhlükəlisi budur ki, bu çərəzin xeyrindən çox ziyanı olduğunu əhali bilmir. Qardaş Türkiyədə də son onilliklərdə populyarlaşan kaju - hind qozunun ziyanlı tərəfləri barədə tanınmış professor, qida mütəxssisi Canan Karatay həyəcan təbili çalıb. "Sherg.az" "Milliyet.com.tr"yə istinadən bildirir ki, Canan Karatay hind qozunun, xüsusən də qovrulmuş halda, ziyanlı olduğunu açıqlayıb. C.Karatay kaju barədə "həyatım boyunca bir dəfə də yemədim", deyib. Hibd qozunu bu qədər təhlükəli edən nədir? Professor bildirib ki, kajunun hazırlanmasında bromid duzundan istifadə edilir, bu isə orqanuzm üçün çox təhlükəlidir. Çərəz xarab olmadan uzun müddət saxlana bilsin deyə, o bromid tərkibli qazla qovrulur. Bu qaz isə kiflənməni də önləyir. C.Karatay ona müraciət edən şəxslər arasında Braziliyada daşıma sektorunda çalışanların da olduğuna diqqət çəkərək qeyd edib ki Türkiyəyə idxal edilən hind qozu Braziliyada istehsal edilir. Uzun müddət xarab olmadan saxlana bilsin deyə çərəzin üzərinə bromid qazı püskürdülür. Bu da orqanizm üçün böyük təhlükə mənbəyidir. C.Karatay açıqlamasında "insanlarımız bu növ məhsulları almamalıdır, yerli və təbii məhsullara üstünlük verməlidir. Hind qozu əvəzinə bildiyimiz, tanıdığımız qoz, fındıq, fıstıq kimi çərəzlərə üstünlük verməliyik. Mən həyatım boyunca bir dənə də hind qozu yemədim, yemərəm də. Cöüz, fındıq, fıstıq varkən, hind qozuna nə ehtiyac?!", söyləyib.

**Məlahət**

## "Survivor"un iştirakçısı ata olacaq, bundan xəbəri yoxdur!

Yunus Əmrənin həyat yoldaşı maraqlı paylaşım edib



**"Survivor All Star 2024"də aldığı ardıcıl cəzalarla gündəmdə qalan qırmızı komandanın iştirakçısı Yunus Əmrənin həyat yoldaşı Beria Özden sosial şəbəkədə hamilə olduğunu açıqlayıb.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, cəzadan sonra ərinin adada əsəb böhranı keçirdiyi anları instaqram hesabında paylaşan Beria Özden yaşadığı böyük kədəri və ərinə duyduğu həsrəti dilə gətirib.

Yunus Əmrənin həyat yoldaşı "Bu gün də ölmədik, yaşadığımı bilmirəm. Səsini eşitmədən gözləmək, danışmadan, ünsiyyət qurmadan keçirdiyimiz 82-ci gündür. Hər keçən gün güclənirəm və digər tərəfdən də səbirlə gözləyirəm", - deyə qeyd edib.

**Hamilə olduğunu da açıqlayan Beria Özden sözlərinə davam edir:** "Tək arzum şad xəbərlərini almaqdır. Biz çətinliklərin öhdəsindən gəlmək üçün birləşdik. Xoş xəbər belə verə bilməmək çox üzücüdür. Ünsiyyət olsaydı, onu özünə gətirərdim, amma çarəsizlik həm məni, həm də onu əsəbiləşdirir. O, bu çətinliyi bizim üçün çəkir, ailəsi üçün çox çalışır. O, dünyanın ən gözəl şeylərinə layiqdir, almaz ürəkli. Sözümdən dönmədən gözləyirəm, atamız".

**Turan**

## Aslı Enver qızı Elayın üzünü ilk dəfə göstərib



**Keçən il ilk dəfə ana olmaq xoşbəxtliyini yaşayan Aslı Enver qızı Elayın fotosunun sosial media hesabında paylaşıb.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, noyabrın 12-də sürpriz qərarla Berkin Gökbudakla evlənən Aslı Enver iyulun 4-də qızı Elayı dünyaya gətirib.

Sosial media hesabında qızı və əri ilə ara-sıra fotolar paylaşan Aslı Enver ilk dəfə qızı Elayın üzünü göstərib.

Aktrisa paylaşımına "Elay, Laylay, Eloş, Elokko, Elo, Eloşka... Evdə xoşbəxtlik" yazıb.

Enverin paylaşımına minlərlə şərh və bəyənmə gəlib.

**Turan**

## Madonnanı rüsvay etdilər

Həmin anlar 2,4 milyon dəfə izlənilib



**Qastrol məşqində ciddi bakteriya infeksiyası keçirən və reanimasiyada müalicə olunan və az qala ölmək üzrə olan Madonna təxirə salınmış dünya turnesini davam etdirir.**

"Şərq" xəbər verir ki, Los-Ancelesdəki konserti zamanı oturan adam görən müğənni fanatına "Orada oturub nə edirsən? Niyə oturursan?" soruşub.

Az sonra Madonna səhnənin kənarına çıxıb və pərəstişkarının əlil arabasında əyləşdiyini görüb.

Müğənni "Oh, tamam. Buna görə üzr istəyirəm. Burada olmağınıza şadam" deyib.

Müğənninin həmin anları sosial mediada yayılıb və tiktokda 2,4 milyon dəfə izlənilib.

Məsələ ilə bağlı açıqlama verməyən Madonnanın davranışı tənqid edilib.

**Turan**







# Maraqlı təsadüf

Adları, yaşları, xəstəlikləri də eynidir

**Türkiyənin Bursa bölgəsində qəribə hadisə yaşanıb. 2 yaşlı 2 körpə eyni vaxtda eyni xəstəlikdən əziyyət çəkir. Körpələrin ikisinin də adı Zeynəbdir. İkisində də qara ciyər çatışmazlığı var. Hər ikisinə də atalarının qara ciyərindən transplantasiya edilib və eyni xəstəxanada! "Şərq" eyni taleyi paylaşan 2 körpə haqqında "NTV.com.tr"yə istinadən xəbər verir.**

Körpələrdən biri Zeynəb Çelik, digəri isə Zeynəb Alyadır. Körpələrin səhhətində yaranan problem səbəbiylə valideynləri onları xəstəxanaya gətirib. Burada isə məlum olub ki, hər iki körpədə qara ciyər çatışmazlığı var. Körpələrə qara ciyər transplantasiyası lazım gəlib. Hər ikisinin də donoru ataları olub. Zeynəb Alyanın valideynləri 4 il əvvəl evləniblər. Bu evlilikdən Münəvvər və Əmrə Sakaryanın qız övladları dünyaya gəlib. Adını Zeynəb qoyublar. Körpə həddindən çox ağlağan olub. Valideynləri onu həkim müayinəsinə aparıb və xəstəlik bu zaman üzə çıxıb. Testlərdə atanın qan və toxuma nümunələri körpəninkilərlə uyğun gəlib. 6 saat çəkən əməliyyat zamanı atanın qara ciyərindən bir parça körpəyə nəql edilib. Körpə Zeynəb atasının sayəsində həyata bağlanıb. Körpənin atası Əmrə Sakarya qorxunc xəstəliklə üz-üzə gəldiklərini danışıb: "Hər an körpəmizi itirmək qorxusu ilə yaşayırdıq. Ona yedirəcəyimiz yeməyi tərəzidə ölçürdük, sonra verirdk. Anlayırdıq ki, bu, uzun müddət davam edə bilməz. Çarə tapmalıyıq. Uludağ Universitetinə müraciət etdik. Həkimlər mütləq qara ciyər nəqli olmasını tövsiyə etdilər. Çox şükür ki, mənim qara ciyərim körpəmin qan və toxuma hüceyrələriylə uyğun gəldi. Əməliyyat uğurlu keçdi, indi rahatıq daha". Körpə Zeynəbin müalicəsi davam etdiyi günlərdə Əmrə Sakarya xəstəxanada başqa bir körpənin atasıyla tanış olub. Məlum olub ki, bu körpədə də qara ciyər çatışmazlığı var. Körpənin adının Zeynəb, 2 yaşının olduğunu biləndə hər iki tərəf bu təsadüfə təəccüb edib. Əminə və Əhmət Çelik ailəsi də Bursada yaşayır. Onların dünyaya gəlmiş övladları körpə ikən sarılıq xəstəliyindən vəfat ediblər. Sonra qız övladları olub və onun adını Zeynəb qoyublar. Körpə Zeynəbin də səhhətində problemlər yarandıqda həkimə müraciət ediblər və körpənin xəstəliyi müəyyənləşib.



Körpə Zeynəbin də atasının qara ciyəri uyğun gəlib və o da bu xəstəxanada əməliyyat edilib. Xəstəxanada qarşılaşmalarını taleyin xoş təsadüfü sayan valideynlər sevinclərini bölüşüblər.

**Məlahət**



## 20 ildir yaşanmayan xəstəlik sürücünü öldürdü!

Qardaşı həqiqəti üzə çıxardı

**O, hamının sevdiyi, ətrafına sevinc saçan bir insan idi. Avtobus sürücüsü işləyirdi. Özünü çox zəif hiss etdiyi üçün həkimə gedəndə nələr yaşadığını öyrənib. Həkimlər onu xilas etməyə çalışsalar da, uşaqlıqda diqqətdən kənarda qalan bir detala görə 48 yaşında dünyasını dəyişib. Mütəxəssislər, tədbir görülmədiyi təqdirdə milyonlarla insanın eyni təhlükə altında olduğunu bildirir.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, bir çox viruslar kimi qızılca virusu da 18-ci əsrin sonlarında dünyanın demək olar ki, hər yerində özünü göstərməyə başlayıb. Müalicəsi ilk növbədə tez tapıla bilməyən qızılca çox sayda insanın həyatını itirməsinə səbəb olub. Lakin araşdırmalar nəticəsində alimlər minlərlə insanın ölümünə səbəb ola biləcək bu virusa çarə tapıblar. 20-ci əsrin əvvəllərində qızılca peyvəndi sayəsində milyonlarla insan daha güclü idi. Bununla belə, son illərdə qızılcaya yoluxma hallarında yeni artım müşahidə olunur. Yetkinlərdə də rast gəlinən bu xəstəlik tutduqca özünü buraxmır. Eynilə 48 yaşında qızılcadan ölən irlandiyalı avtobus sürücüsü Pat Gorman kimi.

Bu günlərdə İrlandiyada 20 ildir yaşanmayan kədərli hadisə gündəmə gəlib. Ailəsi, dostları və hətta hər gün işlədiyi xətdə avtobusuna minən sərnişinlər tərəfindən sevilən 48 yaşlı avtobus sürücüsü Qorman qızılca xəstəliyindən dünyasını dəyişib. İrlandiyanın Dublin şəhərində avtobus sürücüsü işləyən Qorman ətrafına sevinc saçan insan idi. Onun dəfninə gələn sərnişinlər onu ən qaranlıq günləri belə işıqlandıran təbəssümü ilə xatırlayacaqlarını bildiriblər. Ailəsi də, dostları da, hər gün daşıdığı, bəlkə də ömründə heç danışmadığı sərnişinləri də onun gəncin itkisinə üzüldülər. Hər şey birdən başladı. Fevralın əvvəlində Qormanın virusa yoluxduğu, harada və necə yoluxduğu məlum deyil. Özünü çox zəif hiss edən və həkimə müraciət edən Pat Qormana qızılca diaqnozu qoyulub. Baxıldığında, "Qızılcadan ölmək keçmişdə qaldı". Bu qismən doğru məlumat idi. Qızılcadan ölmək tarixə düşsə də, bu, yalnız qızılcaya qarşı peyvənd olunmuşlara şamil edilir.

**Bütün müdaxilələrə baxmayaraq, Qorman bir neçə gün sonra Midlands regional xəstəxanasında dünyasını dəyişib. Ölümündən sonra qardaşı Tom Qormandan alınan məlumat belə olub:** "Pat uşaq ikən qızılcaya qarşı peyvənd olunmayıb, üstəlik, heç vaxt bu xəstəliyə yoluxmayıb". Qardaş əlavə edib: "Qızılca xəstəliyindən danışmaq başqa bir ailəni bu dərddən xilas edəcəksə, bu haqda danışmaq istəyirik". 48 yaşlı Pat Qorman uşaqlıqda qızılcaya qarşı peyvənd olunmadığı üçün qızılca xəstəliyinə düçar olub. İrlandiyanın "ən mehriban avtobus sürücüsü" kimi tanınan Qormanın gənc ölümündən dərs alınmalıdır. "Qızılca peyvəndi" ilə bağlı beyinlərdəki sual işarələrini aradan qaldırmaq üçün ilk növbədə qızılca peyvəndinin nə qədər vacib olduğunu anlamaq lazımdır. Yoluxucu Xəstəliklər və Klinik Mikrobiologiya mütəxəssisi dr. Bengisu Ay peyvəndin əhəmiyyətini belə izah etdi: "Bu xəstəliyin çox ciddi fəsadları var. İshal, daxili qulaq infeksiyası və sətəlcəm ümumi fəsadlardır. Daha az hallarda, hepatit adlanan qaraciyər iltihabına və beyin toxumasının qalıcı zədələnməsinə səbəb olur. Bu beyin iltihabı, SSPE (subakut sklerozan panensefalit) adlanan xəstəlik uşaqlıqda baş verir. Bu, qızılcadan illər sonra ortaya çıxan ciddi bir vəziyyətdir. Ona görə də xəstəliyə qarşı qəti profilaktik tədbir olan peyvənd çox vacibdir. Peyvənd olunmayan icmalarda epidemiya qaçılmazdır".

**Turan**

## Düşünün, daşının!

Evlənməzdən əvvəl bilməli olduğunuz 8 məqam var



**Birlikdə yaşamaq böyük bir addımdır. Çünki bu prosesdə partnyorunuzun daha əvvəl görmədiyiniz cəhətlərini görməyiniz qaçılmazdır.**

"Şərq" xəbər verir ki, birlikdə yaşamadan əvvəl bilməli olduğunuz 8 məqama diqqət yetirmək lazımdır. İstər təsadüfən, istərsə də planlı şəkildə bu qərarı vermiş olmağınızdan asılı olmayaraq, hər biriniz üçün bu addımın nə demək olduğunu müzakirə etmək vacibdir. Razılaşmasanız və birlikdə yaşamağa başlasanız, mübahisə etməyiniz qaçılmaz olacaq. Birlikdə yaşamağa başlayanda dəyişiklik qaçılmaz olacaq. Bu prosesdə ortaq səylərlə keyfiyyətli həyata can atmaq və bir-birinizə kiçik sürprizlər etmək əlaqələrinizi dərinləşdirəcək. Bir yerdə yaşamağınız o demək deyil ki, 24/7 birlikdə olmalısınız. Bu səbəbdən hər ikiniz də özünüzə vaxt ayırdığınızdan əmin olun. Unutmayın ki, tərəfdaşınızın bəyəndiyi hər şeyi bəyənmək məcburiyyətində deyilsiniz. Bunun əvəzinə açıq fikirli olun və paylaşılan həyatı daha qüsursuz etmək üçün həll yolları axtarın. Öz fikirlərini müdafiə etmək asandır, lakin bunun üzərində israr etmək münasibətləri korlaya bilər. Bunun əvəzinə tərəfdaşınızı dinləyin, onun nöqteyi-nəzərini anlamağa çalışın. Bu, sağlam ünsiyyət üçün daha doğrudur. Uzunmüddətli münasibətlərdə zaman-zaman unudula bilsə də, tərəfdaşınıza onun haqqında nəyi qiymətləndirdiyinizi tez-tez söyləyin. Bu, onun özünü yaxşı hiss etməsinə səbəb olacaq, bu da münasibətinizi əks etdirəcək. Dostlarınıza partnyorunuz və ya münasibətiniz haqqında mənfi fikirlər söyləmək əvəzinə, tərəfdaşınızı nə qədər sevdiyiniz və qiymətləndirdiyiniz barədə danışın. Partnyorunuzla danışarkən və ya müzakirə edərkən nəzakətli olmaq həm ünsiyyətinizi gücləndirəcək, həm də onlara əhəmiyyət verdiyinizi göstərəcək.

**Turan**

## İtkin düşən 6 xizəkçidən 5-nin meyiti aşkarlanıb



**Ötən gün İsveçrədə Alp dağlarında yoxa çıxan 21-58 yaş arası 6 xizəkçinin axtarışları nəticə verib. İtaliya sərhədindəki Tete Blanş dağının yaxınlığında itən 5 xizəkçinin cəsədi tapılıb.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, səlahiyyətlilər itkin düşən xizəkçinin axtarışlarının davam etdiyini bildirib. İsveçrənin Valais bölgəsindəki Zermatt şəhərinin havadan xilasetmə xidmətinin direktoru Anjan Truffer vurğulayıb ki, çox güclü küləklər, yüksək uçqun təhlükəsi və görüntünün sıfır olduğu bölgədə havadan axtarış və xilasetmə işləri mümkün deyil.

Xizəkçilərin uçqun altında qalmaqdansa, pis hava şəraitinə yenik düşmüş ola biləcəyini ifadə edən Truffer, "Çünki onlar uçqun riski az olan Zermatt Arolla yolunda itiblər", - deyib.

Qrupdan gələn son siqnalın gecə saatlarında qeydə alındığını bildirən Truffer, siqnalın şifahi olmadığını, xilasetmə qruplarına yerləri ilə bağlı məlumat verdiyini bildirib.

**Fidan Həmişəyeva**